# Aydın Yol

Azərbaycan Tərcümə Mərkəzi

11 mart 2016-cı il № 06 (65) * Həftəlik ədəbi-ictimai qəzet * Qiymәti 30 qәpik







İsa bəy Hacınski

## Əli çörəkli adam

səhifə 5



## İrfani gizlinlərdəki XƏTAİ

səhifə 7



## Dino Buttsatinin hekayəsi

səhifə 13



# Sufi məzarlarının möcüzəsi

səhifə 6



## Kölgə ilə işığın vəhdətindən doğulan sənət

səhifə 10



## Azərbaycanlı aktyorun rus həmkarlarında olmayan özəlliyi

səhifə 12

## ANONS


*“Hər suala bir cavab” ensiklopedik toplusunun birinci cildi çap olundu* — səhifə 3

*“Sonsuz dəhliz” filmi Paris kinoteatrında* — səhifə 3

*“Azərbaycan dilinin orfoqrafiya lüğəti”ndən çıxarılan sözlərin təsnifatının davamı* — səhifə 4

*Gecə yaman uzundur* — səhifə 5

*Sual cümlələrinin tərcüməsi* — səhifə 8

*Herakl və Axilles kimdir?* — səhifə 14

*Amazonkalar və su pəriləri barədə bilmədikləriniz* — səhifə 15

*“Möhtəşəm Yüz il” ümidləri doğrultmadı* — səhifə 16

*Harri Potter haqqında yeni kitab* — səhifə 16

*Şvartsenegger “Yırtıcı” və “Konan” remeykinə qayıdıb* — səhifə 16

# Prezident İlham Əliyev IV Qlobal Bakı Forumunun açılışında iştirak edib




**Azərbaycanın paytaxtında "Çoxqütblü dünyaya doğru" mövzusunda IV Qlobal Bakı Forumunun rəsmi açılışı olub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva, bir sıra ölkələrin dövlət və hökumət başçıları Forumda iştirak ediblər.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən IV Qlobal Bakı Forumunda bu dəfə münaqişələrin qarşısının alınmasında dinlərarası dialoqun rolu, miqrasiya, multikulturalizm və inteqrasiya məsələləri, o cümlədən qlobal təhlükəsizliyin təmin olunması kimi mühüm məsələlər müzakirə edilir. Bundan başqa, enerji və qlobal idarəçiliyin perspektivləri ilə bağlı məsələlər də Forumun gündəliyinə daxildir.

Albaniya, Monteneqro, Bolqarıstan, Gürcüstan prezidentlərinin də qatıldığı Forumda 27 sabiq prezident və 23 sabiq baş nazir də daxil olmaqla, 53 ölkədən 300-dən çox nümayəndə iştirak edir.

Dördüncü Qlobal Bakı Forumunu açan Misirin İsgəndəriyyə Kitabxanasının direktoru, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin hazırda dünyanı narahat edən məsələlərin çoxşaxəli olduğunu dedi, bu problemlərin aradan qaldırılması üçün müzakirələrin aparılmasının vacibliyini diqqətə çatdırdı. O, IV Qlobal Bakı Forumunun bu baxımdan xüsusi əhəmiyyətə malik olduğunu vurğuladı və bu cür mötəbər tədbirə ev sahibliyi etdiyinə görə Azərbaycana minnətdarlığını bildirdi.

Azərbaycan Prezidenti İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi bu Forumun dünyada baş verən mühüm və qlobal məsələlərin müzakirəsi baxımından artıq ənənəyə çevrildiyini bildirdi. Dövlətimizin başçısı ötənilki görüşdən sonra dünyada bir çox dəyişikliklərin baş verdiyini dedi, bu tədbirin məqsədlərindən birinin də planetdə gərginliyin azaldılması, əməkdaşlıq və qarşılıqlı anlaşma üçün əsasların yaradılması olduğunu diqqətə çatdırdı.

Bu il ölkəmizin müstəqilliyinin 25 illiyini qeyd edəcəyini deyən Prezident İlham Əliyev ötən dövrdə Azərbaycanın bir çox problemlərlə üzləşdiyini, terror və müharibəyə məruz qaldığını vurğuladı. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin vacibliyini bildirən dövlətimizin başçısı diqqətə çatdırdı ki, Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır və bütün beynəlxalq qurumlar Dağlıq Qarabağı ölkəmizin ərazisi kimi tanıyır. BMT Təhlükəsizlik Şurasının erməni qüvvələrinin işğal edilmiş ərazilərdən çıxması ilə bağlı qətnamələrinin hələ də həyata keçmədiyini deyən Prezident İlham Əliyev BMT qətnamələrinin icra mexanizminin yenidən işlənməsinin vacibliyinə diqqəti cəlb etdi.



"Ermənistan sülh istəmir və status-kvonun dəyişməməsinə çalışır", - deyən dövlətimizin başçısı işğal olunmuş ərazilərdə hər şeyin məhv edildiyini, tarixi abidələrin, qəbiristanlıqların dağıdıldığını bildirdi. Prezident İlham Əliyev vurğuladı ki, işğalçı cəzalandırılmalıdır, əks halda o, planlarını davam etdirəcək və təhlükə də daim mövcud olacaq.

Azərbaycanda bütün azadlıqların təmin olunduğunu, iqtisadiyyatın inkişaf etdiyini, yoxsulluğun azaldıldığını, sosial və infrastruktur layihələrinin icra olunduğunu deyən dövlətimizin başçısı ölkəmizdə sərmayələr üçün münbit şəraitin yaradıldığını, iqtisadi islahatların uğurla aparıldığını diqqətə çatdırdı. İndi əsas məqsədin iqtisadiyyatda neft və qazdan asılılığın azaldılması olduğunu deyən Prezident İlham Əliyev hazırda nəqliyyat infrastrukturunun yaradılması, enerji sektorunun daha da inkişaf etdirilməsi istiqamətində işlərin getdiyini vurğuladı, "Cənub" qaz dəhlizinin əhəmiyyətindən danışdı, bu layihənin reallaşmasında Azərbaycanın mühüm rolunun olduğunu bildirdi.

Bu il ölkəmizdə "Multikulturalizm ili" elan edildiyini deyən dövlətimizin başçısı müstəqillik illərində bu meylin daha da möhkəmləndiyini və dövlət siyasətinə çevrildiyini bildirdi. "Multikulturalizm yaşayır, onun gələcəyi var", - deyən Azərbaycan Prezidenti ötən ay Nizami Gəncəvinin vətəni olan Gəncə şəhərində İmamzadə dini-mədəniyyət kompleksinin açıldığını, həmin tədbirdə ölkəmizdəki bütün dini icmaların rəhbərlərinin çıxış etdiyini, respublikamızda heç bir ayrı-seçkiliyin olmadığını, bunun da gələcək inkişafımıza zəmin yaratdığını diqqətə çatdırdı.

Ötən il Bakıda birinci Avropa Oyunlarının keçirildiyini, gələn il isə İslam Həmrəylik Oyunlarının baş tutacağını deyən dövlətimizin başçısı bildirdi ki, bizim əsas məqsədimiz ölkəmizin uğurlu inkişafını təmin etməkdir.

**Təsisçi: Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Tərcümə Mərkəzi**
**Baş redaktor:**
**Yaşar Əliyev**
**İcraçı direktor:**
**Bəhlul Seyfəddinoğlu**
**Redaksiya heyəti:**
**Nəriman Əbdülrəhmanlı, Feyziyyə, Narıngül Əliyeva, Rəbiqə Nazimqızı**
**Qəzet 2014-cü ilin 24 oktyabrından çıxır.**
**"Azərbaycan" nəşriyyatında çap olunub.**
**Tiraj: 1250. Sifariş: 762**
**Ünvan: Bakı, Topçubaşov küçəsi 74.**
**Telefon: 595 16 05.**
**E-mail: aydinyol.az@gmail.com**
**Qəzet Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyatdan keçib.**
**Şəhadətnamə nömrəsi: 3899**

# Bakıda "İlaxır çərşənbə" təntənəli qeyd olunacaq

**Martın 15-də Mərkəzi Parkda Bakı Şəhər İcra Hakimiyyəti xalqımızın Milli bayramı - "İlaxır çərşənbə" gününü təntənəli şəkildə qeyd edəcək.**

İcra Hakimiyyətinin mətbuat xidmətindən AzərTAc-a bildirilib ki, martın 15-də saat 10.30-da metronun "İçərişəhər" stansiyası və Bakı Şəhər İcra Hakimiyyəti binasının yanındakı ərazidən Novruz personajları – Dədə Qorqud, Bahar qızı, Kosa, Keçəl və musiqi qruplarının iştirakı ilə dəvələr, süvarilər faytonların müşayiəti ilə Suraxanı "Atəşgahı"na yollanacaq.



Bayram karvanı Bakı Şəhər İcra Hakimiyyətindən hərəkətə başlayaraq İstiqlaliyyət küçəsi ilə Heydər Əliyev Sarayının yanından keçməklə, Bülbül prospekti, Xəqani, Nizami küçələri ilə Xətai heykəli və fəvvarənin yanından keçib, Heydər Əliyev prospektinə çıxıb, metronun "Koroğlu" stansiyasının qarşısından keçib, Hava limanı avtomagistralı ilə hərəkət edərək Suraxanı "Atəşgah"ına yola düşəcək.

"Atəşgah"dan od götürən bayram karvanı geriyə qayıdaraq Hava Limanı avtomagistralı, metronun "Koroğlu" stansiyasının yanındakı "Alov" Fontanın, Heydər Əliyev prospekti, Yusif Səfərov küçəsi, 28 May küçəsi, Rəşid Behbudov prospekti, Füzuli küçəsi və Heydər Əliyev Sarayının qarşısından keçərək , Mərkəzi Parkda bayram tonqalı alovlandırılacaq və Dədə Qorqudun Novruz xeyir-duası ilə saat 19.00-da incəsənət ustalarının iştirakı ilə bayram konserti və atəşfəşanlıq olacaq.




# "Hər suala bir cavab" ensiklopedik toplusunun birinci cildi çap olundu

**Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Tərcümə Mərkəzinin orta məktəb şagirdlərinə əlavə oxu vəsaiti kimi nəzərdə tutulmuş "Hər suala bir cavab" çoxcildlik ensiklopedik toplusunun birinci cildi nəşr edilib.**

"Bizi əhatə edən aləm", "İnsan orqanizmi", "Başqa məxluqlar necə yaşayır?" və s. bu kimi bölmələrdən ibarət nəşr, özündə 300-dən çox mövzuya dair ensiklopedik məlumat əks etdirir.

# "Sonsuz dəhliz" filmi Parisin "Entrepot" kinoteatrında nümayiş olunub

**Martın 9-da Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" təbliğat-təşviqat kampaniyası çərçivəsində Avropa Azərbaycan Cəmiyyəti və Avropa Film Akt Assosiasiyası Parisin "Entrepot" kinoteatrında "Sonsuz dəhliz" sənədli filminin nümayişini təşkil edib.**

Bir çox beynəlxalq mükafatlara layiq görülmüş film Xocalı dəhşətlərinin şahidi olmuş litvalı jurnalist Riçard Lapaitisin hadisələrin şahidləri və Ermənistan tərəfindən qırğının təşkilində birbaşa iştirak etmiş şəxslərlə müsahibələri əsasında ərsəyə gəlib.

Avropa Film Akt Assosiasiyası və Avropa ətrafında Avropa (L'Europe autour de l'Europe) festivalının direktoru İrena Biliç film haqqında qısa məlumat verərək iştirakçılara, xüsusilə də Xocalı faciəsinin şahidləri olmuş Fransanın Azərbaycandakı ilk səfiri Jan Perrenə və litvalı fotojurnalist Riçard Lapaitisə təşəkkür edib.

Avropa Azərbaycan Cəmiyyətinin Paris ofisinin rəhbəri Marie-Laetitia Gourdin filmin süjet xəttindən bəhs edərək sovet ordusunun köməyi ilə erməni silahlı qüvvələrinin Dağlıq Qarabağda, Xocalıda mülki şəxslərə qarşı törətdikləri amansızlıqlardan danışıb. Artıq 20 ildən çoxdur doğma torpaqlarından didərgin düşmüş insanların öz dədə-baba yurdlarına qayıtmaq ümidi ilə yaşadıqlarını diqqətə çatdırıb.




Sonra "Sonsuz dəhliz" filmi nümayiş olunub.

Filmin nümayişindən sonra çıxış edən keçmiş səfir Jan Perren Xocalı soyqırımı zamanı Bakıda işlədiyini, hadisədən sonra xəstəxanaların yaralılarla, eyni zamanda, ağır işgəncəyə məruz qalmış, əl-ayaqları donmuş mülki şəxslərlə dolduğunu xatırladıb.

Azərbaycanın münaqişəni sülh yolu ilə həll etmək istədiyini vurğulayan J.Perren 1993-cü ildə Dağlıq Qarabağ ətrafındakı Füzuli və Cəbrayıl rayonlarının ermənilər tərəfindən işğalı zamanı BMT-nin nümayəndələri ilə birlikdə mühasirəyə düşməsindən, ermənilərin onların avtomobilini atəşə tutmasından və ələ keçirdikləri kəndləri yandırmasından söz açıb. O, təəssüflə qeyd edib ki, Ermənistan BMT Təhlükəsizlik Şurasının, eləcə də digər beynəlxalq təşkilatların münaqişənin həlli ilə bağlı qəbul etdiyi qətnamələrin tələblərinə məhəl qoymur.

Litvalı jurnalist Riçard Lapaitis Xocalı faciəsi zamanı Ağdam şəhərində şahidi olduğu dəhşətli hadisələri diqqətə çatdırıb. Deyib ki, Xocalı hadisələrindən bir həftə sonra Ağdam şəhərinə hələ də meyitlər gətirilir, ermənilər hətta bu meyitləri pulla satırdılar. Tibbi məhkəmə ekspertizası tərəfindən müəyyən olunub ki, insanların əksəriyyəti işgəncələrlə öldürülüb, hətta baş dəriləri diri-diri soyulub. Don vurmuş 590 mülki şəxsin ayağı amputasiya edilib. Hətta uşaqlar da dəhşətli işgəncələrə məruz qalmışdılar.

Jurnalist sonradan təhdidlərə məruz qaldığını da xatırladaraq "Daşnaksütyun" partiyası, ASALA terror təşkilatı və radikal-separatçı erməni təşkilatı "Krunk"un fəaliyyəti haqqında danışıb.

Müzakirələr zamanı verilən suallar bir daha göstərib ki, tamaşaçılar filmdə nümayiş olunan faktlardan çox təsirləniblər. Xocalıda baş verən faciənin bir daha təkrarlanmaması üçün belə hadisələrdən nəticə çıxarılmalıdır.

"Sonsuz dəhliz" filmi Madrid və Tenerife Beynəlxalq Film festivallarında, "Accolade-Global Film Competition" müsabiqəsində mükafatlara layiq görülüb. Film artıq 60-dan çox kino festivalına təqdim edilib və İstanbul, Ankara, Roma, Vilnüs, London, Dublin, Berlin, Bern, Lüksemburq kimi bir çox Avropa şəhərlərində nümayiş olunub. İngilis dilində çəkilən film Azərbaycan, türk, fransız, italyan və alman dillərinə subtitrlərlə tərcümə edilib, rus dilinə isə dublyaj olunub.

**Şəhla AĞALAROVA**

# 143 yaşlı milli teatrımız - zəngin keçmiş və işıqlı gələcək

**Dünən Azərbaycan teatrı yaranmasının 143-cü ildönümünü qeyd edir. Milli teatr sənətimiz qədim və zəngin tarixi yol keçib. İnsanların əmək fəaliyyəti ilə bağlı oyunlar və rəqslər, mövsüm bayramları, aşıq sənəti, dini ayinlərlə əlaqədar meydan mərasimləri, "Qaravəlli" tipli müxtəlif tamaşa növləri xalq teatrının əsasını müəyyən edib, milli teatrın gələcək inkişafı üçün möhkəm zəmin yaradıb.**

XIX əsrin ikinci yarısından başlayaraq Azərbaycanda cərəyan edən ictimai-siyasi proseslər ölkədə maarifçilik hərəkatının inkişafına güclü təkan verib. Ədəbiyyat, mədəniyyət və incəsənət sahələrində köklü forma və məzmun dəyişiklikləri baş verib. Həmin dövr Azərbaycan teatrı üçün də əlamətdar olub. Bu dövrdə görkəmli yazıçı-mütəfəkkir Mirzə Fətəli Axundzadə tərəfindən ədəbiyyatımıza dram janrının gətirilməsi xalq teatrının peşəkar teatr sənətinə çevrilməsində həlledici rol oynayıb.

1873-cü il martın 10-da Bakı realnı məktəbinin teatr həvəskarları truppası tərəfindən M.F.Axundzadənin "Sərgüzəşti-vəziri-xani Lənkəran" komediyası nümayiş etdirilib. Bu tamaşa ilə Azərbaycanda milli teatrın əsası qoyulub. Bu şərəfli işdə Həsən bəy Zərdabi və Nəcəf bəy Vəzirov mühüm rol oynayıblar. Milli teatrın inkişafında məşhur xeyriyyəçi-mesenat Hacı Zeynalabdin Tağıyevin böyük xidməti olub. O, Bakı şəhərində ilk teatr binası inşa etdirib. Nəticədə Azərbaycan səhnəsinin Cahangir bəy Zeynalov, Hüseynqulu Sarabski, Mirzağa Əliyev, Hüseyn Ərəblinski, Ülvi Rəcəb, Abbas Mirzə Şərifzadə, Mustafa Mərdanov, Məmmədrza Şeyxzamanov, Ağasadıq Gəraybəyli, Əliağa Ağayev, Lütfəli Abdullayev, Nəsibə xanım Zeynalova, Mərziyə xanım Davudova kimi yüzlərlə siması yetişib.

Uzun və şərəfli tarixi yol keçmiş Azərbaycan teatrının inkişafında son illərdə yeni mərhələ başlayıb. Bu inkişaf özünü, ilk növbədə, teatrların maddi-texniki bazasının müasir dünya standartlarına uyğunlaşdırılmasında, kollektivlərin yaradıcılıq axtarışlarının bəhrəsi olaraq yeni maraqlı tamaşaların hazırlanmasında, nüfuzlu Qərb, o cümlədən Avropa teatrları ilə təcrübə mübadiləsinin genişləndirilməsində və s. göstərir.

Şübhəsiz, teatrlarımızın yeni inkişaf yoluna çıxmasında ölkəmiz rəhbərliyinin bütün dövrlərində daim mədəniyyət və incəsənətin böyük hamisi kimi bu sahədə çalışanların sonsuz rəğbətini qazanmış Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xidmətləri misilsizdir. Ulu Öndərin bu siyasəti hazırda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Məhz Prezident İlham Əliyevin bilavasitə təşəbbüsü ilə son illərdə ölkədə teatr sənətinin inkişafı ilə bağlı bir sıra fundamental dövlət sənədləri qəbul olunub.

2006-cı ildə Azərbaycanda "Teatr və teatr fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib. Bu qədim yaradıcılıq sahəsinin çağdaş inkişaf mərhələsini əks etdirən Qanunda dövlətin teatr sənətinə xüsusi əhəmiyyət verməsi rəsmən bəyan edilib. 2007-ci ildə Prezident İlham Əliyev teatr sənəti ilə bağlı daha bir mühüm sənəd - "Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında" Sərəncam imzalayıb. 2009-cu il mayın 18-də isə dövlət başçısı "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramını təsdiq edib.

Azərbaycan teatrının 10 illik inkişaf perspektivlərini müəyyənləşdirən Dövlət Proqramı öz fəaliyyəti ilə milli-mədəni sərvətə çevrilən teatrımızın zəngin bədii irsinin və yaradıcılıq ənənələrinin qorunması, Avropa mədəniyyətinə inteqrasiya olunması, teatrların maddi-texniki bazalarının modernləşdirilməsi, teatr binalarının dünya standartlarına uyğun təmiri, informasiya və maliyyə resurslarından səmərəli istifadə edilməsi və repertuarın günün tələblərinə uyğun formalaşdırılması məqsədlərinə xidmət edir.

Qeyd edək ki, hər zaman sənət adamlarına diqqət və qayğı ilə yanaşan Prezident İlham Əliyevin 2013-cu il 1 mart tarixli Sərəncamı ilə ölkəmizdə "Milli Teatr Günü" təsis edilib. Sərəncama əsasən milli mədəniyyətin inkişafında və ölkənin mədəni həyatında milli teatrın əhəmiyyəti və rolu nəzərə alınaraq hər il martın 10-u Azərbaycan Respublikasında "Milli Teatr Günü" kimi qeyd edilməsi qərara alınıb. Həmin tarix ölkəmizin hər yerində silsilə tədbirlərlə qeyd olunur.

Azərbaycan teatrının uğurları hələ qarşıdadır. İnanırıq ki, bu gün yaranmasının 143-cü ildönümü qeyd edən Azərbaycan teatrı qarşıdakı illərdə bir-birindən maraqlı səhnə əsərləri ilə daha böyük uğurlara imza atacaq.



# Teatr xadimləri mükafatlandırıldı

**❍ 10 Mart - Milli Teatr Günü münasibətilə Azərbaycan Teatr Xadimləri İttifaqında (ATXİ) teatr sənətinin inkişafında xidmətləri olan bir qrup şəxsə mükafatlar təqdim olunub.**

AzərTAc xəbər verir ki, İttifaqın sədri, Xalq artisti Azərpaşa Nemət bütün sənət adamlarını təbrik edib, teatrın şanlı tarixindən, sənətdə iz qoymuş müqtədir sənətkarlardan söhbət açıb.

Tədbirdə mədəniyyət və turizm nazirinin müavini Ədalət Vəliyev çıxış edərək Azərbaycan teatr sənətinin keçdiyi tarixi yola nəzər salıb, qazanılan uğurlardan və nəzərdə tutulan işlərdən danışıb.

Azərbaycan teatr sənətinin inkişafına töhfələr verən insanların əməyinin hər zaman dövlətimiz tərəfindən yüksək qiymətləndirildiyini söyləyən Ə.Vəliyev deyib ki, Mədəniyyət və Turizm Naziri də bu istiqamətdə mühüm işlər görür. Belə ki, hər il onlarla teatr xadiminə müxtəlif mükafatlar təqdim edilir. Ənənəsinə sadiq qalan nazirlik bu il də teatr sənətimizin inkişafında zəhməti olanları əlamətdar gün münasibətilə mükafatlandıracaq.

Sonra bir qrup teatr işçisinə Mədəniyyət və Turizm Nazirliyinin "Fəxri mədəniyyət işçisi" döş nişanı və fəxri fərmanlar təqdim edilib. Həmçinin, bu sənətin inkişafına töhfə verən bir qrup sənətkara ATXİ-nin təsis etdiyi "Sənətkar" medalı və fəxri fərmanlar verilib. Eyni zamanda, Xalq artisti Eldar Quliyevə və Xalq rəssamı Fərhad Xəlilova Azərbaycan Teatr Xadimləri İttifaqının fəxri üzvü vəsiqəsi təqdim olunub.

Mədəniyyət və Turizm Nazirliyinə, həmçinin Teatr Xadimləri İttifaqının rəhbərliyinə minnətdarlığını bildirən mükafatçılar Azərbaycanda dövlət səviyyəsində sənətə və sənətkara verilən qiymətdən söz açıb və teatr sənətimizin inkişafı naminə bundan sonra da əzmlə fəaliyyətlərini davam etdirəcəklərini bildiriblər.

# "Azərbaycan dilinin orfoqrafiya lüğəti"ndən çıxarılan sözlərin təsnifatı

**Artıq neçə aydan bəridir ki, ARNK yanında Tərcümə Mərkəzində "İşlək orfoqrafiya lüğəti" üzərində iş gedir. Məqsəd, hazırda istifadədə olan "Azərbaycan dilinin orfoqrafiya luğəti»ndə yer almış minlərlə yazılışı səhv, qəliz ərəb, fars sözlərinin, mənası və mənbəyi bilinməyən söz və söz birləşmələrinin, müxtəlif şəkilçilər və hallandırmalarla artırılmış, bəzən iki-üç şəkildə verilmiş ifadələrin, eləcə də sahə lüğətlərinə aid terminlərin, dərman, kimyəvi element adlarının təmizlənməsi, əvəzində milli ədəbi nümunələrdən aranıb tapılmış sözlər daxil edilməklə, işlək, aydın dil vəsaitinin ərsəyə gətirilməsidir.**
**Adıçəkilən kitabdan, orfoqrafiya lüğəti qaydalarına uyuşmayan sözlərin təsnifatını nəzərinizə çatdırır, oxucuların, dil və lüğət mütəxəssislərinin fikir və mülahizələrini, irad və təkliflərini gözləyirik.**

**"Aydın yol"**

*(Əvvəli ötən saylarımızda)*

Orfoqrafiya lüğətinin tərifi: "Orfoqrafiya lüğəti - sözlərin düzgün yazılış qaydasını bildirən dil vəsaitidir".

| Mənşəyi, yaxud mənası anlaşılmayan sözlər | Yazılışı səhv sözlər və söz birləşmələri | Diallekt və ara sözləri | İşlənməyən ərəb, fars, rus və digər əcnəbi sözlər | Terminlər | Süni sözlər və söz birləşmələrindən düzəldilən qurama sözlər | Lüzumsuz sözlər və söz hallandırmaları |
|---|---|---|---|---|---|---|
| aşqallatmaq | bədnəzərli | bəlgəli | bədtinət | ampelometriya | arvadaoxşarlıq | anyilər |
| aşsız | bədniyyətli | bəlgələmə | bədtinətli | ampermetriya | balıqsatma | ap-alaca |
| aşüftəlik | bədsifətli | bəlgələmək | bədguluq | amplidin | balıqsoyutma | aparatlı |
| atacıq | bərkqabıqlı | bəlgələnmə | bədxuluq | amplifikasiya | balıqyemə | aparatsız |
| atağızlı | bərqərarolan | bəlgələnmək | bəhanəpərdaz | anabazin | balıqyuma | aparaturalı |
| atəşkeş | bəyanatverən | bəlgələtmə | bəhcət | anaerob (-lar) | balıqyuyan | aparaturasız |
| at-gün | biganəlikgöstərmə | bəlgələtmək | bəhərhal | anaerobioz | balsız-qaymaqsız | apatrid (-lər) |
| atılğan | bigümanolma | bərkgetmə | bəhrəvər | anafaza | baltalı-baltasız | arakçeyevçilik |
| atlayış | bığsızsaqqalsız | bıçqıçı | bəhriyyəli | anafilaksiya | bankayuma | araqarışdırıcı |
| aval | bığyağı | bıçqıçılıq | bəhriyyəsiz | anafora | bankayuyan | aravaklar |
| avan | bihalolan | bıçqılama | bəistilahi-türk | anaforez | banketvermə | arbovirusl u |
| avanı | bihuşqalma | bıçqılamaq | bəkləmək | anaxron | bankrotolma | ardıclı |
| avanmaq | biimanlıqetmə | bıçqılanma | bəqədri-imkan | anaxronik | bar-barxanasız | ardıclıq |
| avralçılıq | biimanolma | bıçqılanmaq | bəqədri-qüvvə | anaxroniklik | bardaşquran | ardıcsız |
| ayaqbasan | biinsaflıqetmə | bıçqılatma | bəqədri-məqdur | anaqlifiya | bardaşqurma | areallı |
| ayaqcıqarası | biinsafolma | bıçqılatmaq | bəqiyyə | anaqram | barışıqçı | arəstələşdirilmə |
| ayaqcıqlararası | bikara | binələmək | bəladidə | analgeziya | barıtçı | arəstələşdirilmək |
| ayaqçı | bikaralaşma | binələnmə | bələdiyyət | anamorf | barıtqabılı | arğaclanma |
| ayaqçılıq | bikaralaşmaq | binələnmək | bəlğəmməzac | anamorfizm | barıtqabısız | arğaclanmaq |
| ayaqdarağı | bikar-bikar | birhovr | bəlucca | anamorfot | barmaqarasıbaxan | arğaclatma |
| ayaqhaqqı | bikarçılıq | birikmək | bəndər | anaplazmoz | barmaqarasıbaxma | arğaclatmaq |
| ayaqkirəsi | bikarlama | birikmiş | bəndərgah | anartriya | barsız-barxanasız | arxadakı |
| ayaqqabıçı | bikarlamaq | boyanalı | bəndivan | anaslid (-lər) | barteretmə | arxaizmli |
| ayaqlandırma | bikarlaşma | boyanasız | bəngi | anastiqmat | barverici | arxaizmsiz |
| ayaqlandırmaq | bikarlaşmaq | bozarantı | bərbəriyyət | anastiqmatik | basaratıbağlanan | arxalıqsız |
| ayaqlatdırma | bikarlıq | bozarantılı | bərcəstə | anastomoz | basdalanıb-yapıxan | arxasızca |
| ayaqlatdırmaq | biqeyrətliketmə | bozarantısız | bərdavam | anatoksin | basdalanıb-yapıxma | arıtlanmaq |
| ayaqseyri | biqeyrətolma | bozqırı rəng | bərəks | andante | basdalanıb-yapıxmaq | arqunov (-lar) |
| ayaqüstülük | bilgialan | bozqırılıq | bərfərz | andezin | basdalanıb-yapıxmış | arpalanmaq |
| ayazıtma | bilgilietmə | bozqırlaşma | bərhəm | andezit | basıb-keçirən | arpalı |
| ayazıtmaq | bilgiliolma | bozqırlaşmaq | bərkəmal | andradit | basıb-keçirmə | arpasız |
| ayğır-ayğır | bilgilisiz | bozqırlıq | bərkənar | androqogika | basıb-keçirmək | arsızca |
| ayğırlıq | bilikliolmaq | böyələkçi | bərqəsd | androspora | basilgəzdirən | arşaki (-lər) |
| ayıbgörən | bilikliolmaq | böyələkləndirmə | bərmurad | anemoxoriya | basilgəzdirmə | arşınlanma |
| ayıçınqılı | bilyardoynayan | böyələkləndirmək | bərraq | anemometr | basırıqsalma | arşınlanmaq |
| aylatma | bimbizduran | böyələklənmə | bərşikəst | anemometriya | basırıqsalan | artdırma |
| aylatmaq | bimbizolan | böyələklənmək | bərtərəf | anemon | bas-klarnet | artelçi |
| aylıqçılıq | bintlənib-bağlama | böyəmək | bərzəx | anergiya | basqıetmə | artıqlamaq |
| aymak | bintlənib-bağlamaq | böyənmə | bəsirətkar | aneroid | başabaşetmə | artıqlaşma |
| aynabədən | biratlı | böyənmək | bəstər | aneuploidiya | başabəlaaçma | artıqlaşmaq |
| aynabədənli | biratomlu | bucuğaz | bəstəri | anfelsiya | başabəlaolma | artıqlığınca |
| aynabədənlik | birbaşaaçıqlama | bucuğazca | bəşaşət | anfiloda | başağrısıolma | artistcəsinə |
| aynabədənlilik | birbaşabaşlama | bulaşıq-yağlov | bəşərta | angioreseptor (-lar) | başaqyığan | arvadcasına |
| ayrılış | birbaşadanışma | burazlamaq | bəşərti | angiospazma | başataxdı | arvadsız |
| ayrıntılı | birbaşagedən | burazlanma | bəşşaş | anglomaniya | başataxma | arvasız |
| ayrıntısız | birbaşaoxuma | burazlanmaq | bəzletmə | anhidrit | başbilənli | arzulu |
| azadxah | birbəndli | burcuxmaq | bəzmgah | anhormonik | başcıqvarı | arzusuz |
| azadxahlıq | bircərgə | burmaclamaq | bəzr | anilid (-lər) | başçılıq-sərkərdəlik | asancasına |
| azadıstan | bircildlilik | buruntaqlama | bəzrlik | anilin | başçı-sərkərdə | asfaltlanmaq |
| azadmahı | bircür | buruntaqlamaq | bəzzaziyyəbiahəng | anilin-formaldehid | başdanbaşlama | asqırtma |
| azailəli | bircürə | buruntaqlanma | bəzzazlıq | anilnitrat | başdan-dibə | asqırtmaq |
| azailəlik | birçəkqoyan | buruntaqlanmaq | bibak | aniloi | baş-diş | assimiləedici |
| azaylanmaq | birçölməkli | buruntaqlatma | bibar | anilon | başıaçıq-ayağıyalın | assurişünas |
| azcinsləşdirilmə | birçömçəli | buruntaqlatmaq | bibədəl | animizm | başıbağlıolma | assurişünaslıq |
| azcinsləşdirilmiş | birdamarlı | buy-buy | bibəhrə | anion | başqalaşa-başqalaşa | astalaşdırma |
| azgüclü | birdərddəolma | bükdələmə | bica | anionit (-lər) | baş-qulaqaparan | |
| azin | birdərəcəli | bükdələmək | bica-bica | anizofiliya | baş-qulaqdanetmə | |

*(Davamı gələn sayımızda)*

**...Səhərə yaxın Balaxanı mədənində gözlənilmədən fontan vuran neft quyusunun uğultusu uzaqdan eşidilirdi. Taxta buruq, fontanın "qəzəbinə" güclə tab gətirirdi, sanki indicə param parça olacaqdı. Günlərdən bəri yuxusu ərşə çəkilən, qazın, neftin kəskin qoxusundan bəzən huşunu itirən, təpədən-dırnağadək mazuta bulaşmış fəhlələr neft selini ram etməyə çalışırdı. Günəşin ilk şəfəqləri göründükcə, yorğun gözlərinin ağı işıldayan bu adamlar ora-bura vurnuxur, yuxulamamaq üçün bir-birini haylayır, neftin axması üçün çuxur qazırdılar.**
**Şad xəbəri mədən sahibinə tezdən çatdırmışdılar. İndi hamı səbirsizliklə onun yolunu gözləyirdi. Fəhlələr bilirdilər ki, ağa quyunun fontan vurmasına sevinəcək, gəlib hamıya şirinlik verəcək, yaxşı işə görə maaşı artıracaq. Çünki bu, mədəndə uzun müddətdən bəri davam edən xoş bir ənənə idi. Gözlənildiyi kimi də oldu. Az keçmiş kələkötür mədən yolunda ağanın avtomobili göründü. O, cəld maşından düşüb hamı ilə görüşdü, hal-əhval tutdu, fəhlələrə "əhsən" deyib, neftdən bir ovuc götürdü, qoxuladı, keyfiyyətini yoxladı.**



# Əli çörəkli adam

- Allah əl-qolunuzu var eləsin, qardaşlar, böyük, həm də çətin iş gördünüz. Deyəsən, birbaşa damara düşmüşük, lap doşab kimidi, əla neftdir!

Ağanın göstərişi ilə işlər müdiri fəhlələrə şirinlik payladı. İzdihamdan bir razılıq uğultusu keçdi.

- Bu gündən hamınızın maaşını artırıram, məvacibin iki mislini alacaqsınız. Halal olsun, ailələrinizi rahat dolandırın, qoy balalarınız ehtiyac çəkməsinlər...

Fəhlələr ağaya dua edib razılıq bildirdilər, sonra hərə öz işi ilə məşğul olmağa başladı. Ortaboylu, arıq bədənli, qıyıq gözlü, qara burma bığları olan mədən sahibi isə hələ xeyli müddət yerindən tərpənməyib, şahə qalxan neftin yaratdığı ecazkar mənzərəyə tamaşa etdi. Gözlərindən görünürdü ki, qəlbi sevinc və iftixar hissi ilə döyünür. Mədən sahibi kükrəyən neftin bugünkü Azərbaycan, xüsusən də inkişaf yoluna yenicə qədəm basmış Bakı üçün necə böyük önəm daşıdığını, mədəndə çalışan zəhmətkeş insanların taleyində mühüm rol oynadığını yaxşı bilirdi. O, qəlbinin dərinliklərində Ulu Tanrıya, xalqına bəxş etdiyi bu əvəzsiz nemət üçün təşəkkürünü bildirirdi...

Fəhlələrin hörmətlə "bizim ağa" deyə müraciət etdiyi bu şəxs məşhur Bakı milyonçusu İsa bəy Əbdülsalam bəy oğlu Hacınski idi. XIX əsrin sonlarında Azərbaycanın neft sənayesində yeni inkişaf mərhələsi başlanmışdı. Bu dövrdə neft sənayesində fəaliyyət göstərən 167 sahibkarın 49-u azərbaycanlı idi. Milli neft milyonçularının - Hacı Zeynalabdin Tağıyev, İsa bəy Hacınski, Murtuza Muxtarov, Şəmsi Əsədullayev, Seyid Mirbabayevin fəaliyyətinin genişlənməsi sayəsində Bakı sürətlə sənaye mərkəzinə çevrilir, yenidən tikilir, gündən-günə abadlaşırdı.

...İsa bəy 1860-cı ildə Bakıda, zadəgan ailəsində anadan olub. Atasından ona bir neçə mülk və böyük torpaq qalmışdı. Tezliklə həmin sahələrdə neft yataqları aşkar edildi. Mədənlərdə yüksək ixtisaslı fəhlələr işləyirdi, onların əməkhaqqı isə Nobelin, Rotşildin, Montaşovun işçilərinin aldığı puldan qat-qat çox idi.

İsa bəyin Bibiheybətdə də zəngin neft mədənləri vardı. Xəzər dənizindəki Çələkən adası onun və qardaşı Kazım bəyin ixtiyarında idi. Qara şəhərdə isə sahibkarın ağ neft zavodu fəaliyyət göstərirdi. Hacınskilər həm də gözəl binalar inşa etdirən bir ailə kimi məşhurlaşmışdı. Bunlardan ən əzəmətlisi "Hacınskinin evi" kimi tanınan və Qız Qalasının yaxınlığında yerləşən binadır.

Şəhərə ilk avtomobili də milyonçu İsa bəy gətirmişdi. O, Bakı bulvarının salınmasında xeyli pul xərcləyərək, şəxsi mülkünü məhz dəniz kənarında tikdirmişdi. O zamanlar bulvar indiki Kukla Teatrının binasından "Azneft"in binasına qədər olan sahədə yerləşirdi. 1912-ci ildə İsa bəy indiki Neftçilər prospekti, 103 ünvanında yerləşən binanı ərsəyə gətirmək üçün memarı İtaliyadan dəvət etmişdi. Burada qotik, barokko, modern və s. üslublar ustalıqla qovuşdurulduu. Əzəmətli imarətin girişində mərmərdən yonulmuş şir heykəlləri vardı. Təəssüf ki, 1918-ci il mart hadisələri zamanı partlayış nəticəsində bu heykəllər parça-parça oldu. (Yeri gəlmişkən, bu yaxınlarda paytaxtın Füzuli küçəsində 10 metr sürüşdürülərək yeri dəyişdirilmiş tarixi bina da Hacinskilərə məxsus olub).

1905-ci ildə H.Z.Tağıyev Müsəlman Xeyriyyə Cəmiyyəti yaratdı. Cəmiyyət yoxsullara, qocalara himayədarlıq edir, təhsilə dəstək verirdi. Cəmiyyətin idarə heyətində İsrafil Hacıyev, Hacı Mustafayev, Əhməd bəy Ağayev, İsmayıl bəy Səfərəliyev, Əlimərdan bəy Topçubaşov və Əsədulla Əhmədov kimi şəxslər yer alırdı. Onun təsisçiləri sırasında isə Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Hacı Aslan Aşurov, İsa bəy Hacınski, Kamil bəy Səfərəliyev, Əbdülxalıq Axundov, Məmmədrza ağa Vəkilov, Həsən bəy Ağayev, Nəcəfqulu Sadıqov, Mirzə Əsədullayev, Əsəd bəy Səlimxanov, Ağabala Quliyev, Hacı Həsən Ağamalıyev, Nəcəf Əmiraslanov vardı. Bu şəxslər yalnız Bakının zəngin insanları deyil, həm də öz xalqının görkəmli elm və mədəniyyət xadimləri idilər.

İsa bəy ev təhsili almasına baxmayaraq, ərəb, fars, ingilis, fransız və alman dillərini yaxşı bilirdi. O, övladlarına da mükəmməl təhsil vermişdi, Bakı Kişilər Gimnaziyasının fəxri himayədarı idi. Gimnaziyanın azərbaycanlı məzunlarından 25 nəfər onun şəxsi vəsaiti hesabına təhsil almaq üçün Rusiyanın müxtəlif şəhərlərinə göndərilmişdi.

Bu xeyriyyəçi insan məktəbin bütün xərcini qarşılayırdı, hətta şagirdlərin yay tətilində dincəlməsi üçün Pyatiqorsk yaxınlığında, Vladiqafqaz dəmir yolunun Karras stansiyası ərazisində boş torpaq sahəsi alıb orada gözəl bir mülk də tikdirmişdi. Gimnaziya ödənişli olsa da, kasıb uşaqları burada pulsuz təhsil alırdı. (Hazırda bu binada 4 saylı şəhər xəstəxanası yerləşir).

1918-ci ilin mart qırğınları bu xeyirxah insanı dərindən sarsıtdı və o, 1919-cu ildə vəfat etdi. İsa bəy Xeyransa xanım Məhəmməd bəy qızı Xanlarova ilə ailə qurmuşdu. Onların Sadıq bəy, Əhməd bəy, Əli bəy adlı oğlanları, Zibeydə xanım adlı qızları vardı. Bolşeviklər Azərbaycanı işğal etdikdən sonra Sadıq, Əhməd və Əli bəy Fransaya məcburi mühacirətə getdilər. Qızı Zibeydə və həyat yoldaşı Xeyransa xanım isə Bakıda qaldılar. Onları yaşadıqları təmtəraqlı imarətdən qovdular, heç Mərdəkandakı bağ evlərində də rahat yaşamağa imkan vermədilər.

**Fərhad SABİROĞLU**

# Gecə yaman uzundur



Fərhad ABDULLAYEV

**Milli Məclisdə İnzibati Xətalar Məcəlləsinə təklif olunan dəyişikliklər qəbul edilsə, məişət səs-küyünə qarşı mübarizə tələblərini pozan fiziki şəxslər 300 manatdan 400 manatadək cərimələnəcəklər. Vəzifəli şəxsləri isə daha yüksək məbləğdə - 2 500 manatdan 3 500 manatadək cərimə gözləyir.**

Nəhayət, vətəndaşları narahat edən bu problem həllini tapır. Qonşuların bir-birinə qarşı məsuliyyətinin artırılması üçün qanunvericiliyə dəyişikliklər nəzərdə tutulur. Yeni layihə, mənzillərdə, yaşayış evlərinin girişlərində və həyətlərində, küçələrdə, istirahət yerlərində və digər ictimai yerlərdə gecə saat 12-dən səhər 7-dək məişət səs-küyünün qarşısının alınmasına hesablanıb. Gecə saatlarında səs-küy salanlar, ucadan mahnı oxuyanlar, musiqi alətlərini ucadan çalanlar, televizoru və maqnitofonu gur səslə oxudanlar cərimələnəcəklər.

..."Mozalan" satirik kinojurnalında mərhum aktyorumuz Fazil Salayevin iştirakı ilə çəkilmiş məşhur süjeti xatırladım. Əgər yadınızdadırsa, biçarə, evində səhərəcən rahat yata bilmir, qonşuların, məhəlləyə gəlib-gedənlərin hay-küyündən zinhara gəlir və sonda dəlixanalıq olur. Sovet dönəmində çəkilmiş bu süjet elə bizim günlərin də reallığını tam dolğunluğu ilə əks etdirir.

Bugünlərdə oxşar əhvalat mənim də başıma gəldi. Əslində bütün bunlar şəhərimizin sakinləri üçün yenilik deyil. Belə xoşagəlməz mənzərələrlə tez-tez qarşılaşsaq da, adətən əl yelləyib üzümüzü yana çevirir, yaxud "mənə nə" deyib qulağımıza pambıq tıxayır, yorğanı başımıza çəkib şirin yuxuya getməyə çalışırıq. Yatmağa çalışmaq isə hələ yuxuya getmək deyil.

...Qonşu nəvəsinin ad gününü qeyd edirdi. Üçotaqlı mənzilə xeyli qonaq toplaşmışdı. Blokda çəkilən siqaret tüstüsünün dumanı bir yana, səsgücləndiricidən yayılan ritmik musiqi sədaları ilə qonaqların rəqsindən doğan səs-küy divarları titrədirdi. Məclis gecədən xeyli keçmiş dağıldı. Ev sahibinin sərxoş qonaqları həyətdə xeyli ucadan zarafatlaşdılar, sonra maşınlara minib müxtəlif melodiyalı səs siqnallarını nümayiş etdirərək, məhəllədən ağır-ağır uzaqlaşdılar.

"Qonşudur da, inciməyin yeri yoxdur, nəvənin ad günü ildə bir dəfə olur" deyib yuxulamağa çalışdım ki, fişəng gurultusundan və "Vağzalı" sədalarından dik atıldım: üzbəüz binada bəy-gəlin toydan qayıtmışdı. Sərxoş qohumlar xeyli fişəng atıb həyətin ortasında doyunca rəqs elədilər. Bütün sakinlər gecənin bir aləmi balkonlara axışıb əsnəyə-əsnəyə şouya tamaşa edirdi. Nəhayət toy əhli insafa gəlib bəy-gəlini maşından düşürüb evə yola saldı və maşın karvanı siqnallara qərq olaraq həyəti tərk etdi.

Az keçmiş, bir neçə avtoş qaqaş təkərləri "qışqıraraq" mərkəzi küçə ilə ötüşməyə başladı. Qonşulardan kimsə YPX-ya zəng vurdu. Bu dəfə də patrul maşını sirenanı və mikrofonu işə salıb avtoşları qovmağa başladı.

Bir azdan gecənin sükutunu torpaqdaşıyan və betonqarışdıran maşınların nəriltisi pozdu. Səhərə yaxın 2 yanğınsöndürən maşın tükürpədici siqnallar verərək küçədən şütüdülər (gecənin bir aləmi hadisə yerinə gedərkən boş küçədə sirenanı qoşmağın mənası varmı?).

Nə isə... Məhəllənin gecə macəraları bununla bitsə də, içimdəki təlaş hələ tam çəkilməmişdi. İndicə səhər açılacaq və küçəmizdə...

İnzibati Xətalar Məcəlləsinə edilən dəyişikliklər Milli Məclisdə qəbul edilsə, bu il mayın 1-dən qüvvəyə minəcək. Lakin qonşuluq münasibətləri, az qala insanlıqla yaşıddır. Elə məsələlər var ki, onu qanun deyil, sadə məntiq tənzimləyir. Hətta qanun qəbul edilsə də, elə bir mexanizm işləyib hazırlamaq mümkün olacaqmı ki, qonşunun qonşudan şikayəti qərəzli olmasın.

Qanuna əməl etmək hamının borcudur. Özü də əgər bu qanun vətəndaşların normal istirahətinin qorunması, birgə yaşayış qaydalarına tam əməl olunması ilə bağlıdırsa, deməli, hər birimizin məsuliyyəti böyükdür. Cərimə ödəməklə iş bitmir. İlk növbədə özümüzdən başlamalı, çevrəmizdəkilərin gündəlik həyatına hörmətlə yanaşmalı, gələcək nəsillərə örnək olmalıyıq.

# Sufi məzarlarının möcüzəsi

**Sufi üçün zaman və məkan anlayışı tam olaraq nisbidir. O, ruh məhsulu (sufi maddidən uzaq olar) olaraq birbaşa zaman və məkanın o tayında olan metafizik dünya ilə təmasdadır. "Divarın o tayında"kı həyat əsl sufi yaşam tərzidir. Yazı üçün demək olar ki, orta əsrlərin əksər sufilərini mənbə seçmək olardı - istər Azərbaycanda, istər Anadoluda, Bəlx, Xorasan, Bağdadda... Fərq etməz, harada olursa-olsun, az qala hər bir övliyanın möcüzəsi və həmin möcüzənin onun ölümündən sonra da yaşanmasına aid dəlillər gətirmək olar. Amma bilərəkdən zamanın ayrı-ayrı nöqtələrində, yəni XI və XIX əsrlərdə yaşamış iki Azərbaycan sufisindən, daha doğrusu, onların məzarlarından bəhs etməyin bir səbəbi var: zaman və məkan anlayışlarını alt-üst edən, estafat kimi bir sufidən o biri sufiyə keçən energetik əlaqə, Ali Ruh nişanəsi...**

XI əsrdə yaşayan Baba Kuhi Bakuvidən XIX əsrin sufi şairi Seyid Nigariyə estafet olaraq ötürülən ruh… Yazının da əsas məqsədi bu RUHun dövriliyini göstərməkdir… Məzarlar isə bəlkə də bir bəhanədir. Keçək mətləbə:

Haqqında ilk danışacağımız şəxsin bioqrafiyası hər zaman mübahisə doğurub. Bu şəxs X- XI əsrlərdə yaşamış görkəmli sufi şairi, dövrünün elm xadimi Baba Kuhi Bakuvidir. O, indinin indisində də sirli bir övliya sayılır. Guşənişin halda məskunlaşdığı dağda qəbri uzun müddət ziyarət yeri olub.

Elmi tədqiqatlarda da gizli qutu kimi qalan Kuhi tam dərindən araşdırılmayıb. Azərbaycan alimlərindən Solmaz Rzaquluzadə, Zakir Məmmədov, Məsiağa Məhəmmədi, Sənan İbrahimov onun haqqında araşdırmalar aparıblar.

*Sənə çatanda bildim*
*Sənə gedən Yolam mən...*

X əsrin sonlarında Baba özünü təkmilləşdirmək və təsəvvüfün sirlərinə vaqif olmaq üçün Nişapura yol alır. Çünki X əsrin sufizm mərkəzi məhz, ora idi. Orta əsr alimi Ənsarinin dediyinə əsasən Baba Kuhi Nişapura varınca fasilələrlə bəzi şəhərlərdə məskunlaşır, oranın elmi, mənəvi aurası, bir sıra dəyərli alimləri ilə tanış olur. Bu ərəfələrdə o hətta 30000-ə yaxın hədis də toplayır. Əvvəlcə Şiraza gəlir və orda Şərqin böyük alimi, yəni "Şeyx Kəbir"i adlanan Hafifi ilə tanış olur. Bu tanışlıq ona aşərilik cərəyanını sevdirir. Sonra Bağdada, daha sonra isə Nişapura gedir. Amma heç yerdə qərar tuta bilmir. Bir dərviş kimi öz missiyasında çox maraqlı olan Baba sufizmin sirlərinə vaqif olmaqdan ötrü dövrün böyük alimlərinin Kuşayrinin, Xereqaninin, Sərracinin, Əbu Yəzdinin cəm olduğu Nişapurda o biri şəhərlərə nisbətən xeyli müddət qalır. Amma yenə də bu uzun və mürəkkəb eşq yolunda könlünü tam olaraq işıqlandıra bilmir. Könlünün hürr, ruhunun quş misalı olmasına çalışan Baba dövrünün beyin mərkəzini də tərk edir.

Böyük şərqşünas Bertels də öz əsərində belə qeyd edir: "Kuhi ora sufizmin möcüzələrini öyrənməyə getmişdi. Amma buna nail olmadığı üçün bədbinlik içində oranı tərk etdi".

Nişapuru tərk edən zaman Baba Bakuvinin nə az, nə çox, düz 97 yaşı olur. Amma o, yenə də uzun həqiqət yolçuluğundan usanmır. Sükunətə qapılmaq, yalnız Allahla ünsiyyətdə olmaq istəyir. Odur ki, səssiz-səmirsiz insanları tərk edir və Şiraz yaxınlığında bir dağa çəkilir. 20 il guşənişin ömür sürür. Məskunlaşdığı dağı da könlündəki İlahi nura bürüyür. 117 yaşında vəfat edir və həmin dağda dəfn olunur. Məzarı ilə öz mənəvi təcəssümünü məskunlaşdığı dağa aşılaya bilir.

Beləcə, insanda cəm olan işıq, dağı müqəddəsləşdirir. İnsanlar onun məzarına müqəddəs yer kimi baxır. Özü ölür və işığını dağda qoyub gedir. Beləliklə, insan bax beləcə dağa dönərək əbədi olaraq bəşəriyyətin xidmətində dayanır. Ona görə də o, Kuhi (yəni `dağ`) təxəllüsü ilə xatırlanır. Xatırlanır və əfsanələşir. Rəvayətə görə Şərqin böyük şairi Hafiz Şirazi gecə ikən o sufinin dağdakı qəbrini ziyarət edir və ondan sonra şairlik istedadı qazanır.

Başqa bir rəvayətə görə, Şirvanşahlardan birinin qızı öz mərhum sevgilisinə yaxın olmaq, onun qəbrinə və bütün müsəlman aləmindən ziyarətinə gələnlərə qulluq eləmək məqsədilə buraya gəlir, öləndə isə onun yanında dəfn olunur.

## Baba Kuhinin əsərlərində gizli şifrələr

Kuhinin həm "Divanında", həm də digər fəlsəfi mətnlərində dərin mənaya malik, orijinal fəlsəfi fikirlər, İlahi hikmətlər var. Bəzilərinə diqqət edək:

"Yoxdur ruhların mürəkkəbliyi, hamı bilir ki, onlar torpaqdan yaranıb. Kuhi üreyini bədəninin təbindən siləndən sonra nəhəng bir dəryaya düşdü".

Bu fikir vəhdəti-vücud fəlsəfi konsepsiyasının əsas müddəalarını özündə əks etdirir. Belə ki, vəhdəti-vücudda "insan dəryadan ayrılan damlalar kimi, ilahi vücuddan ayrılmış zərrələrdir" düsturu bu nəzəriyyənin ana qayəsini əks etdirir. Kuhi də bunu çox gözəl vurğulayıb. Damcılar sonradan yenə dəryaya qayıdan kimi, insanlar da zərrə kimi yenidən öz əslinə qayıdır. Şair də onu vurğulayır:

Mən ruhumdan bədənimi yudum və böyük dəryaya düşdüm, həyat haqqındakı həqiqətləri dərk etdim.

Başqa bir nümunə:

"Bir anda bütün əbədiyyətin sirri mənə açıldı, sirlər dünyasının qapısı üzümə açıldı. O canımın qulağından yapışıb mənə başqa qədəh verdi, dedi, məni özündən və başqa adamlardan fərqləndir. Dedi, Kuhi, mən bütün adları sifətləri, qurunu, yaşı, xeyri, şəri nəyi görürəmsə, fərqləndirirəm.

Burda isə o, həyatda bütün var olanların vəhdətdə olma məqamını açıqlayır. Həqiqətən də, bütün var olanlar vahid bir harmoniya altında hərəkətdədirlər".

## Qarabağdan Amasyaya: Seyid Həmzə Nigari

XIX əsrdə yaşayan sufi-şair Türkiyənin Harput ərazisində vəfat etsə də, vəsiyyətinə əsasən Amasyaya gətirilib və oğlunun yanında dəfn edilib. Daha sonralar isə onun məzarının yerləşdiyi yerdə türbə inşa olunub. Hazırda ora pir kimi ziyarət edilməkdədir. Amma simvolik olaraq sufi şeyxlərinin sonuncusu hesab olunan Seyid Həmzə Nigarini Qarabağ, Qazax, Ağsuda da xatırladan tikililər mövcuddur.

O, XVIII əsrin sonlarında Qarabağın Cicimli kəndində dünyaya gəlib. Atası Mirpaşa Rüknəddin çar ərazisində islamın təbliğinə görə təxribat nəticəsində öldürülür. O vaxt gələcəyin sufi alimi cəmi 9 aylığında idi. Amma atasının üzləşdiyi tale gələcəkdə onu da izləyəcəkdi. Belə ki, Nigari Şeyx Şamilin başçılıq etdiyi dağ döyüşçü-müridlərinə vəsf etdiyi şeirlər və islamın təbliğinə görə doğma vətəndən uzaqlaşmalı olur. Müridləri onu Türkiyəyə yola salırlar. 1867-ci ildə müridlərinin yardımıyla Qarabağa gələn Seyid Həmzə orada hələ də təhlükə altında yaşayan ailəsini – yoldaşı Əminə xanımı və oğlu Siracəddini götürüb Amasyaya gətirərək burada yaşamağa başlayır. Amasyada nəqşibəndi təkyəsi quraraq insanları ətrafına toplayıb onları irşad edir.

Seyid Nigarinin sevimli oğlu və müridi olan Siracəddin 1875-ci ildə 22 yaşında Amasyada vərəmdən vəfat edir. Bu hadisə sufi şeyxinin bütün ruhunu sarsıdır. Şeirlərinin çoxunu oğluna və Qarabağa həsr edir. Çünki Amasyada böyük hörmət-izzət sahibi olanda belə, onu bu iki həsrət - vətən və oğul həsrəti üzür. Odur ki, oğlundan 10 il sonra yəni 1885-ci ilin yayında Harputda vəfat edərkən yeganə istəyi ya Qarabağda, ya da oğlunun yanında dəfn olunmaq olur. Onun Qarabağla bağlı vəsiyyəti mümkün olmur. Son anlarını yaşayan sufiyə bildirilir ki, Harputdan Qarabağa cənazə aparmaq qeyri-mümkündür. Nigari həzrətləri ikinci dəfə xahiş edib ki, onda onu oğluyla qovuşdursunlar. Çünki onlar bəzi səbəblərdən Amasyadan Harputa sürgün olunmuşdu. Amasyada qazandığı nüfuz Osmanlını təşvişə saldığından oranı tərk edən sufi oğlundan da uzaqlaşmışdı. Amma bu vəsiyyət yerinə yetirilir. Müridlər və yaxın qohumları yayın istisinə baxmayaraq, onu Amasyaya aparırlar. On günə yaxın yol qət etməsinə olmasına baxmayaraq cənazəyə heç nə olmur. Hətta dəfn vaxtı görürlər ki, on gün yol gələn cənazə ətrafa xoş qoxular yayır. 1894-cü ildə Azərbaycandan gələn yardımların hesabına onun məzarının yerində Seyid Həmzənin əmisi oğlu Mir Həsən tərəfindən türbə və sonralar "Şirvanlı" adlanacaq məscid tikilir.

Sürgün olduğu bütün şəhərlərdə o özünü böyük övliyya kimi tanıda bilir. Amma Nigari doğma Qarabağı heç vaxt unuda bilmir.

Yazının əvvəlinə qayıdaq. Baba Kuhidən Nigariyə dövr edən Ali Ruh zərrəsi, energetic dalğalar Azərbaycan ərazisində yaranıb və bir çox yerlərə yayılıb. Bu dalğalar indi də öz mənəvi aurası ilə hər tərəfi işıqlandırır. Bir neçə il bundan qabaq Nigarinin Amasyada olan türbəsini inşaat layihəsinə əsasən sökmək istəyəndə bütün yerli sakinlər ayağa qalxdı. Bir azərbaycanlı xanım isə (səhv etmirəmsə Nigar İsgəndərzadə) öz şəxsi vəsaiti hesabına həmin türbəni sahmana saldırdı. Xalq şairimiz Nəriman Həsənzadə də bu məqsədlə Amasyaya gedərək təmin türbəni ziyarət edib və "Seyid Nigari türbəsi" adlı poema da yazıb.

**Qeyd: Yazıda Zakir Məmmədovun "Azərbaycan fəlsəfəsi tarixi", Sənan İbrahimovun "Klassik ədəbiyyatda vəhdəti-vücud" monoqrafiyalarından, Məsiağa Məhəmmədinin "Baba Kuhi Bakuvi. Həllacın həyatı və ölümü", Zümrüd Quluzadənin "Azərbaycan fəlsəfəsinə dair" irihəcmli araşdırmalarından və Yaqub Əlioğlunun "Seyid Nigari" sənədli filmindəki mətndən istifadə olunub.**

**Elmin NURİ**



Aydın YOL 7
N 06(65) 11.03.2016

# İrfani gizlinlərdəki XƏTAİ



**Gənc yaşlarında Səfəvilər dövlətini yaradan və Azərbaycanın ərazi bütövlüyünü ilk dəfə bərpa edən Şah İsmayılın ehtimal olunan ilk portretləri avropalı rəssamlar tərəfindən çəkilib.**

**Bu gün hamımızın kitablarda, albomlarda, müxtəlif mənbələrdə gördüyümüz, onun sırf Qızılbaşlara xas olan papaqlı portretinin müəllifi isə naməlum florensiyalı rəssamdır.**

**XVI əsrin əvvəllərində venesiyalılar, Səfəvilər dövləti ilə yaxın münasibətlərinə görə çox fərqlənirdilər. Oradan Səfəvilərin Təbrizdəki sarayına tacirlər, sənətkarlar və elçi qismində diplomatlar gələrdi. Avropada Şah İsmayılın şəxsiyyəti, onun vizual görkəmi haqqında ilk rəy yaradan şəxslər də elə Venesiya tacirləri olublar.**

Venesiyadan olan bir tacir 1518-ci ildə yol qeydlərində özünün Şah İsmayılla Təbrizdəki görüşlərini belə xatırlayır və onu bu cür xarakterizə edir:

"İndi onun 31 yaşı var. Ortaboylu, olduqca gözəl və mərd bir kişidir. Saqqalını qırxır, bığ saxlayır. Ona hər qız vurular. Solaxay olsa da, bütün əyanlardan güclüdür. Oxatma məşqləri zamanı, adətən musiqi çaldırır. Rəqsi çox sevir və rəqqasələr oynayarkən ayaqlarını yerə döyərək, İsmayıla həsr olunan mahnılar da oxuyurlar.

O, hər gün əyanlarıyla oxatma yarışları keçirmək üçün meydana çıxır və həmişə də günün qaliblərinə mükafatlar verir. Bu yarışlar vaxtı onun şərəfinə çalıb-oxuyur, rəqs edirlər. Bu sufi öz təbəələri, xüsusilə də əsgərlər tərəfindən sevilir və pərəstiş olunur. Onun əsgərlərindən bir çoxu döyüşə yalın əllə-dəbilqə və zirehsiz girirlər, onlar əmindirlər ki, İsmayıl onları döyüşdən salamat çıxaracaq".

Böyük ehtimala əsasən, həmin tacirlərlə eyni vaxtda Şah İsmayılın sarayına gələn və adı hələ də naməlum qalan rəssamlardan biri onun portretini çəkib. Bu gün Xətaini necə təsəvvür ediriksə və necə görürüksə, burada həmin portretin çox böyük rolu var.

Həm də Xətainin portretini Nizami və Füzulinin portretindən fərqləndirən əsas cəhət budur ki, o, ehtimallar əsasında yox, konkret olaraq obyektin (Xətainin) real siması əsasında çəkilib.

XVI əsrin əvvəllərində çəkilən həmin portret hazırda Florensiyada yerləşən Uffitsi muzeyində saxlanılır. İtaliyanın nüfuzlu Mediçi ailəsi tərəfindən inşa edilən muzeyin ilk eksponatlarından biri də elə Şah İsmayıl portreti olub.

Toksana hersoqu I Kosimo Mediçi üçün 1560-cı illərdə iqamətgah kimi tikilməyə başlanan sarayın memarı isə dünyada incəsənət tarixinin əsasını qoyan Corco Vasari olub.

Ölümündən sonra onun işi digər memarlar - Alfonso Parici və Bernardo Buontalenti tərəfindən davam etdirildi və 1581-ci ildə I Kosimo Mediçinin oğlu, Florensiya hersoqu I Fransisko Mediçinin dövründə sarayın inşası tamamlandı. Sonradan II Fransisko Mediçinin həyat yoldaşı Vittoriya della Rovere tərəfindən Uffitsinin kolleksiyası zənginləşdirildi və saray, əsasən muzey kimi fəaliyyət göstərməyə başladı. Günü bu gün də dünyada ən çox ziyarət edilən 25 muzeydən biri kimi Şah İsmayıl Xətaini avropalılara tanıdır.

Şah İsmayıl Xətainin sonrakı rəsmlərinə isə fransız səyyahı və coğrafiyaşünası Andre Tevenin kitabında rast gəlinir. Səyyahın dövrü Səfəvilərin zamanına düşsə də, 1584-cü ilə aid olan həmin portret tarixçilər tərəfindən birmənalı qarşılanmayıb.

Daha sonra miniatürçü rəssamlar Şah İsmayılın cizgilərini çəkməyə cəhd göstərib.

1510-cu il Səfəvilərlə Şeybanilər arasında olan Mərv döyüşünə aid rəsm Şah İsmayılı ən yaxşı xarakterizə edən miniatür kimi qeyd olunur.

Məlum olduğu kimi həmin döyüş sonradan Səfəvilərin möhkəmlənməsində böyük rol oynadı. Xorasanı ələ keçirən Səfəvilər 5 dövlətin müəyyən hissələrinə nəzarət etməyə başladılar ki, bu da onlara çox yaxşı strateji mövqelər qazandırdı.

Həmin döyüşdə öldürülən Şeybani xanın başından Şah İsmayıl qızıl suyuna çəkilən qədəh düzəltdirir. Həmin miniatür əsər I Şah Abbasın saray tarixçisi olan İsgəndər bəy Münşinin "Aləmi bəzəyən Abbasın tarixi" əsərində verilib.

Yazıya Şah İsmayılın portreti haqqındakı bəhslə başlamağımız heç də təsadüfi deyil. Belə ki, onun sufi sifətini əks etdirən məlumatların əsas təsdiq forması elə həmin fotodur. Bəli, klassik Azərbaycan fəlsəfəsinin, dövlətçilik tarixinin və ədəbiyyatının yeganə siması Şah xətaidir ki, onun vizual simasını başqa mütəfəkkirlərdən fərqli olaraq, real təsvirlər əsasında görürük. Onunla eyni dövrdə yaşayan Füzulinin məşhur portretini heykəltaraş Fuad Əbdürrəhmanovun yuxusu əsasında, Nizaminin portretini isə gəncəli bir axundun timsalında görürük və qəbul edirik. Amma Şah Xətai elə özüdür ki, var. Həm mürşidi-kamil olan Səfəviyyə şeyxi, həm şah olan Səfəvi dövlətinin başçısı uşaq yaşından ta ömrünün sonuna qədər mənəvi və dünyəvi rəhbərlikdən özünü "xilas" edə bilmədi. Burada xilas əslində Nəsimi, Mənsur, Şeyx Fəzlullaha aid olan xilasolma anlamındadır. Şah Xətai ömrünün sonuna qədər buna can atsa da, dövlətçilik missiyası onu Nəsimi qədər azad edə bilmədi...

## Şah İsmayılın özündən getməsi

Sufi fəlsəfəsində insanın bəqa aləmindən fəna aləminə keçidi bahariyyə kimi təsvir olunur. Şah İsmayıl Xətaidə daha çox rast gəlinən bu rəmzi keçid, əslində böyük Nizamidə özünün ən gizli tərəflərini açıb göstərə bilmişdi. Füzulinin "Leyli və Məcnun" əsərində də qəzəllərin biri bahariyyəyə həsr olunub. Orada Məcnunun Leyliyə olan rəmzi sevgisi artıq onun üzərinə fəna aləminin qapılarını açır. O, öz baharına qovuşmağın həsrətini çəkir. Poemada əsas məntiq də bu həsrətdədir. Məcnun səhrada Leylidən, məhz buna görə imtina etmişdi ki, illuziv olaraq ruhunda yaratdığı "Leyli baharına" qovuşa bilsin. Bu mərhələ sırf elmi-fəlsəfi mahiyyət kəsb edir. Belə ki, real həyatda mart ayının sonlarında, bahar gəldikdən sonra təbiət qış yuxusundan ayılır, ağaclar çiçək açır və s. İnsanın ruhi aləmində də bu hallar baş verir. Fəna məqamına çatandan sonra insanda qəflət yuxusundan ayılma, bu ayılmadan sonra bədəninə yayılan enerji və bu enerjinin dövri hərəkəti nəticəsində ruhun cavanlaşması, bədənin gərginlikdən xilas olması halları baş verir. Bir sözlə, İlahi aspektə doğru hərəkət edə-edə insan bioloji varlığı ilə ruhi varlığının inteqrasiyasını həyata keçirərək onları vahid nöqtədə birləşdirir. Məhz, bu vahid İlahi nöqtədə birləşmə prosesi klassik ədəbiyyatda və Şərq fəlsəfəsində Bahariyyə adlanır.

Rəvayətə görə, Təbrizdə özünü yeni şah elan etmiş İsmayıl (Tarix-1501-ci il - red.) öz hücrəsinə qapanaraq uzun müddət kimsə ilə ünsiyyət qurmazmış.

Haşiyəyə çıxaraq onu da deyək ki, Şah İsmayılın şahlıq dönəmində Səfəvi sarayında sufilər, şeyxlər üçün hər zaman gizli hücrələr olub. Şah İsmayılın özünə aid olan gizli hücrələrin sayı isə bir neçəyə çatırmış. Şah, xüsusən də 1514-cü ildə, qanlı Çaldıran döyüşündəki məğlubiyyətdən sonra ömrünün qalan 10 ilini daha çox həmin hücrələrdə keçirib.

Gənc şahın hücrədən çıxandan sonra qeyri-adi fikirlər səsləndirməsi, şahdan daha çox hal əhlinə xas olan anlayışları təfəkkür etməsi hətta dövrünün ən öncül şeyxlərini də təəccübləndirib. Xətainin Ələst məclisindən bəhs edən və Alim Qasımovun ifasında sevilən misraları həmin sirli görüşmələrdən sonra meydana gəlib:

*"Yer yox ikən, göy yox ikən*
*ta əzəldən var idim*
*Gövhərin yektanəsindən*
*irəli pərgar idim.*
*Girdim Adəm cisminə*
*bir kimsə bilməz sirrimi*
*Mən bu beytullah içində*
*ta əzəldən var idim".*

Xətainin bu misraları səsləndirəndən sonra özündən getdiyini deyənlər də var. Yuxarıda Ələst məclisinin adını çəkdik. Təsəvvüf aşiqlərinin sözlərinə görə, dünya var olunmamışdan əvvəl Allahla mələklərin böyük məclisi keçirilib. Fəna aləmində bu dünyanın bir növ eskizləri cızılıb, inkişaf tarixi planlaşdırılıb. İnsanın həmin məclisdə iştirakı onun kainatdan da əvvəl var olduğuna bir işarədir. Şah Xətai də yuxarıdakı misralarında buna işarə vurub. Onun ruh davamçısı olan Aşıq Ələsgərin "Ələstdən "bəli" dedim, nə xoş kamaldı yüküm" misraları da bu sirli məclisə işarədir.

## Təhrif olunan ləqəb

Deyilənlərə görə, Şah İsmayıl İraqı işğal etdikdən sonra Kərbəlaya ziyarətə gedir. Kərbəlada Hz.Hüseynlə bir yerdə şəhid olmuş Hürrün məzarını açır. Görür ki, Hüseynin Hürrün yarasına təpdiyi dəsmal yerindəcə durmaqdadır! Dəsmalı çıxardığında qan axmağa başlayır! Sonra dəsmalı nə qədər yerinə qoysa da, qan dayanmaq bilmir! Və İsmayıl xəta etdiyini anlayıb təxəllüsünü "Xətai" qoyur.

Tarixçilərin danışdığı bu hekayəti irfan alimləri inkar edir. Onların fikrincə, "xəta" sözü əslində heç bir məna daşımır. Yəni ərəb əlifbasında olan "ta" ilə yox, nöqtəli "te" ilə yazıldığından konkret ifadə etdiyi anlam yoxdu. Bu sözü təşkil edən hərflərin əbcəd hesabı isə cəmi "1001"-ə bərabərdir və məlumdur ki, bu rəqəm islam fəlsəfəsində sonsuzluq ifadə edir.

**Elmin NURİ**

# Sual cümlələrinin tərcüməsi

**Türkcədə sual cümlələri dilimizdəki kimi, əsasən, sual əvəzliklərinin, sual ədatlarının və sual intonasiyasının köməyi ilə düzəlir.**

**Türkcə şifahi nitqdə və yazılı tərcümədə xüsusi diqqət etmək lazımdır ki, xüsusi sual intonasiyası ilə əmələ gələn sual cümləlləri müasir türk ədəbi dili üçün xarakterik deyil. Azərbaycan dilində nəqli cümlələrin intonasiyasını dəyişmək, yəni cümlənin sonunda tonu yüksəltməklə (yazıda isə sual işarəsi qoymaqla) sual cümləsi əmələ gətirmək mümkün olduğu halda, türkcədə bu, mümkün olmur. Bu məqsədlə türk dilində çox geniş yayılan (mı, mi, mu, mü) sual ədatından istifadə edilir:**

Səlim evdədir – Səlim evdədir? – Selim evde mi?

Atam gəldi – Atam gəldi? – Babam geldi mi?

Müasir türkcədə sual cümlələrinin əmələ gəlməsində xüsusi sual intonasiyasının rolu nə qədər azdırsa, *mı, mi, mu, mü* sual ədatının rolu bir o qədər çoxdur. Dilimizdən fərqli olaraq bu ədatın şifahi və yazılı ədəbi türkcədə işlənmə tezliyi və dairəsi, məna çalarları daha geniş, cümlədə yeri daha çevikdir. Müqayisə məqsədilə S.Alinin "Xəz paltolu Madonna" povestinin orijinalından gətirdiyimiz cümlələrə və bunların dilimizə tərcüməsindən götürülmüş qarşılıqlarına nəzər salmaq kifayətdir:

Hep bankada mısın? – Yenə də bankda işləyirsən?

Yazı filan yazıyor musun? – Yazıdan-zaddan yazırsan?

Bir faydası oluyor mu? – Bir faydası olur?

Raif Efendi sizsiniz, değil mi? – Raif əfəndi sizsiniz?

Kalabalık mısınız? – Çoxsunuz?

Misalların sayını artırmaq olar. Lakin sadəcə bunu qeyd etməklə kifayətlənək ki, əsərin türkcəsindəki *mı, mi, mu, mü* ədatlı 100-dən artıq sual cümləsinin bir-neçəsi istisna edilməklə hamısı dilimizə sual intonasiyası vasitəsilə tərcümə edilib.

Əlbəttə, müasir türkcədə xüsusi sual intonasiyası ilə düzələn sual cümlələri də var, lakin bunların işlənmə dairəsi çox məhduddur və müəyyən şərtə bağlıdır. Hər şeydən əvvəl, yarımçıq cümlələrdə səs tonunu dəyişməklə sual vermək mümkün olur. Bu zaman, həmin cümlədə işlənməyən, lakin asanlıqla təsəvvür edilən sual əvəzliyinin varlığı nəzərdə tutulur:

- Kaç yaşındasınız?

- Böyle şey sorulur mu? Ama neyse, yirmi altı… Siz? (Buradakı "Siz?" sualı "Siz kaç yaşındasınız?" yerinə işlədilib.)

- Kalkıyor musun?, - dedi.

- Kalkacağım… Sen? (Sen kalkmıyor musun?).

- İsminiz? (İsminiz nedir?).

- Raif.

- Mesleğiniz? (Mesleğiniz nedir?)

- Muharrir.

Türkcədə ehtimal bildirən bəzi ədatların *(demek, galiba, anlaşılan)* işləndiyi cümlələrdə xüsusi sual intonasiyasının köməyi ilə sual verilə bilir:

Demek bir anneniz var?

Şerifin yaptığı nakışlardı onlar galiba?

Hâlâ bu olayın acısını unutmadın anlaşılan?

Xəbəri feilin şərt şəklində işlənmiş cümlələr də xüsusi sual intonasiyasının köməyi ilə sual cümləsi kimi işlədilə bilir:

İnanmaya inanmıyoruz, ama doğruysa?

Ya öğretmen gelmezse?

İsterseniz gidelim?

Türkcədə *mı, mi, mu, mü* ədatı ilə yanaşı ya ədatı da sual cümləsi yaratmaqda geniş istifadə edilir. *"Ya"* ədatı Azərbaycan dilinin *"bəs"* sözünə uyğun gəlir. Bununla yanaşı, türk dilində *"ya"* həm də qüvvətləndirmə ədatı, eləcə də bağlayıcı kimi çıxış edir:

Ben gidiyorum. Ya sen? – Mən gedirəm. Bəs sən?

Dedim ya! – Mən ki, dedim! (Mər artıq dedim).

Türkcədə *mı, mi, mu, mü* sual ədatının ən mühüm məziyyətlərindən biri budur ki, bu ədat qoşulduğu sözdən ayrı yazılır, zaman şəkilçilərindən sonra işlədilir və onlarla bitişik yazılır:

Sen Ankara'ya mı yarın gidiyorsun?

Sen Ankara'ya yarın mı gidiyorsun?

Sen mi Ankara'ya yarın gidiyorsun?

Sen Ankara'ya yarın gidiyor musun?

Mı, mi, mu, mü sual ədatı türkcədə ritorik sual cümlələrinin əmələ gəlməsində də ən mühüm komponent kimi iştirak edir. Bəzən cümlənin inkarlıq bildirən xəbəri ilə işlənərək təsdiq, bəzən də təkzib bildirən xəbəri ilə qoşa gələrək inkar mənalarını bildirir:

Buralarda ne sürünüyorsun, paran mı yok, aklın mı? (Paran da var, aklın da!).

Sanki giyecek elbisen mi yok? (Var!)

İhtiyarlıkta rahat etmek için gençlikte çalışmamış mıydık? (Çalışmıştık!).

İnsanlık mı, arkadaşlık mı bu? (Değil!).

İç şunu be, zehir mi bu? (Zehir değil!).

## Təsviri feillərin tərcüməsi

Türkcədə dilimizdə olmayan bir sıra təsviri (analitik, perifrastik) feil formaları var ki, onların cümlədə ifadə etdikləri məna çalarlarına tərcümədə diqqətlə yanaşılmalı, bunların adekvat formaları tapılmalıdır. Məsələn, türkcədə geniş şəkildə işlədilən və adına tezlik feili deyilən təsviri feil forması var. Vermək feili başqa feil əsaslarına birləşərək cümlədə ifadə edilən iş, hal, hərəkətin tez, sürətli, ani olaraq baş verdiyini və ya verməsinin səbəbini göstərir:

Kuduz köpek alçakça ısırır adamı. Sessisce yanaşır arkanızdan, sol bacağınızın baldırını ısırıverir – Quduz it adamı alçaqcasına dişləyir. Arxanızdan səssizcə yanaşır. Sol baldırınızı birdən dişləyir.

Orijinal cümlədəki ifadə edilən hərəkətin aniliyini, gözlənilmədən baş verdiyini nəzərə çatdıran *ısırıverir* təsviri feili mütərcim tərəfindən dilimizə doğru olaraq birdən (qəflətən) dişləyir şəklində tərcümə edilib. Aşağıdakı cümlələrdə də vermək feili hərəkətin başvermə intensivliyini, işin sürətlə edildiyini bildirir:

Fakat o anda 25 kuruşu görerek duasını unutuverdi – Fəqət o anda 25 quruşu görüb, duasını (tələmtələsik) unutdu.

Ali iki adımda onu yakalayıverdi – Əli onu cəld (iki addımda, həmin dəqiqə) yaxaladı.

Türkcədəki təsviri feillərdən biri də kalmak feili ilə düzəlir. Bu feil qoşulduğu feil əsasının ifadə etdiyi iş, hal və hərəkətə mat qalma, quruyub qalma (təəccübdən, qorxudan) məna çalarları verir:

İnce İmam gözlerinin üstünden bakakalır.

Orağın sırtını kafasına indirecekken eli kalakaldı.

Türkcədə iş, hal, hərəkətin səkliliyini, davamlılığını ifadə etmək üçün istifadə edilən feili bağlama şəkilçisi və *durmak* təsviri feilinin məna çalarları da dilimizdəkindən qismən fərqlidir:

Konuşmadan avluda dolaşıp duruyordu.

Sen yaza dur, ben gider gelirim.

Her zaman beni sevdiğini söyler durursun.

Gözlerini bana yiyecek gibi dikmiş duruyor.

Bütün gün yazdı durdu.

Türkcədəki təsviri feillərdən biri də yazmak sözü ilə düzəlir. Bu söz qoşulduğu feil əsasının ifadə etdiyi iş, hal və hərəkətə az qala, az qaldı ki məna çaları verir:

Sokak ortasında düşeyazdı – Küçənin ortasında az qala (az qalsın) yıxılacaqdı.

## Bölüşdürmə saylarının tərcüməsi

Türkcədə morfoloji yolla yaranan bölüşdürmə sayları Azərbaycan dilinə ya sintaktik yolla – eyni bir sayın təkrarı ilə, yaxud da həmin sayların əvvəlinə "hərəyə", "adambaşına" və s. sözlər əlavə edilməklə tərcümə olunur:

Bize onar lira yol harçlığı verdiler – Bizim hərəmizə (adambaşına) on lirə yol xərci verdilər.



Uçaklar üçer beşer havalanıyordu – Təyyarələr üç-üç, beş-beş havaya qalxırdılar.

Kızlar ikişer, erkekler dörder dizilsinler – Qızlar iki-iki, oğlanlar dörd-dörd düzülsünlər.

Orhanla ben mağazadan birer kurşunkalem, beşer defter aldık – Orxanla mən mağazadan hərəmizə bir karandaş, beş dəftər aldıq.

Basamakları ikişer ikişer atlıyarak bahçeye doğru koşuyorum – Pillələri iki-iki adlayaraq bağçaya tərəf qaçıram.

Milyon və milyar sözləri ilə düzələn saylarda bölüşdürmə şəkilçiləri yalnız həmin sözlərdən əvvəl gələn saya artırılır:

Personele yedişer milyon yeni türk lirası dağıtıldı – İşçilərə adambaşına yeddi milyon yeni türk lirəsi paylandı.

Birer milyar değerinde altın bilezik, kırkar baş koyun, ikişer milyarlık inci gerdanlıkla başlık meselesini çözeriz – Adam başına (hərəsinə) bir milyard dəyərində qızıl bilərzik, qırx baş qoyun, iki milyard qiymətində mirvari boyunbağı ilə başlıq pulu məsələsini həll edərik.

Türkcədə *yarım, az, tek, kaç, çift, birkaç* sözləri də *ar, er, şar, şer* şəkilçiləri qəbul edib, bölüşdürmə sayı kimi işlənə bilir: Yarımşar, azar azar, çifter çifter.

Sofradakilere yarımşar ekmekle azar azar peynir, çifter çifter domates və salatalık servis yapıldı – Süfrə başındakıların hər birinə yarım çörək, bir az pendir, bir cüt pomidor və iki xiyar paylandı.

Kahvaneye girip birkaçar bardak çay içtik – Qəhvəxanaya girib hərəmiz (adambaşına) bir neçə stəkan çay içdik.

Çocuklar teker teker sıraya geçtiler – Uşaqlar bir-bir (tək-tək) sıraya keçdilər(girdilər).

Herkes ekmeği çifter çifter alıyordu – Hər kəs çörəyi cüt-cüt alırdı.

Kaçar kişilik timlər oluşturuldu? – Neçə nəfərlik qruplar (briqadalar) təşkil edildi? (Hər bir briqada neçə nəfərdən ibarət təşkil edildi?).

Matarada su çok azdır, azar azar için çocuklara da kalsın – Qumqumada su çox azdır, az-az için ki, uşaqlara da qalsın.

## Ca/ce şəkilçili sözlərdə leksik-qrammatik əvəzlənmə

Türkcədə işlədilən *ca/ce* şəkilçisinin dilimizdəkindən fərqli funksiyası da var. Tərcümə zamanı bu şəkilçi ilə işlədilən sözlərin ifadə etdiyi mənaya görə Azərbaycan dilində leksik-qrammatik əvəzlənməsi (məsələn, "tərəfindən" sözü ilə) doğrudur:

Bakanlar Kurulunca alınmış karar doğrultusunda hareket edilmelidir. – Nazirlər Kabineti tərəfindən qəbul edilmiş qərara uyğun (şəkildə) hərəkət etmək lazımdır.

Türkiye Anayasasına göre Başbakan, Cumhurbaşkanınca atanır – Türkiyə Konstitusiyasına görə Baş nazir Prezident tərəfindən təyin edilir (Baş naziri Prezident təyin edir).

**Əsgər RƏSULOV,
Filologiya elmləri doktoru,
professor**

Aydın Yol
N 06(65) 11.03.2016


**Azərbaycan əsilli görkəmli türk yazıçısı, siyasətçi və dövlət xadimi Səməd Ağaoğlu (1909-1982) çağdaş Türkiyədə memuar ədəbiyyatının görkəmli nümayəndələrindən biri kimi tanınır. Onun oxuculara təqdim olunan "Atamın dostları" kitabında atası, XX əsrin ilk onilliklərində Azərbaycanın və Türkiyənin fikir həyatında müstəsna xidmətlər göstərmiş Əhməd Ağaoğlunun (1869-1939) türkçülük hərəkatında, sənət və siyasət aləmində, yeni Türkiyənin qurulması uğrunda mübarizədə çiyin-çiyinə addımladığı bir sıra görkəmli şəxsiyyətlərin portretləri yaradılıb. Müəllifin ad çəkmədən son dərəcə səciyyəvi cizgilərlə rəsm etdiyi bu portretlər özlərinin, eləcə də Əhməd Ağaoğlunun həyatının, mübarizə və ideallarının bir sıra xüsusiyyət və keyfiyyətlərini aşkara çıxarır.**



**Səməd AĞAOĞLU**



# Atamın dostları

*(Əvvəli ötən saylarımızda)*

Onu İstiqlal Məhkəməsinə rəis seçməklə bağlı Böyük Millət Məclisinə verilən təklif tam yerində idi. Qaziyə hər şeydən öncə hərbi rütbələri arasındakı böyük fərqdən çıxış edərək bir polkovnikin bir marşala bəslədiyi itaət hissi ilə yanaşırdı. Aralarındakı münasibətin bəzi başqa səbəbləri də vardı. O da Birinci Dünya Hərbindəki fəlakətlərin məsuliyyətini ön sıradakılara yükləyən ittihadçılardan, tapşırılan vəzifəni gözünü qırpmadan yerinə yetirən fədailərdən idi. Nəhayət, xarakterinin də qəlbi kimi heç bir təsirlə əyilməyəcək sərtliyə malik olduğunu yaxşı bilirdi.

İndi bu sətirləri yazarkən gözlərim önünə yenə Ankara İstiqlal Məhkəməsində keçən günlərdən biri gəlir. Müttəhim kürsüsündə teleqraf məmuru oturmuşdu.

İttiham edilməsinin səbəbi üsyan baş verən ərazidəki bir dostuna vurduğu aşağıdakı teleqram idi:

"Din uğrunda mübarizədə böyük şəhid Həzrəti Həmzənin[1] yanına getməyə hazıram!"

Atamın dostu gözlüyünü burnunun ucuna qədər endirdi. Dodaqlarının arasından fit kimi çıxan səsi, sözlərinin havada parıldayan qırmanc kəskinliyi ilə müttəhimə üz tutdu:

"Deməli, Həzrəti Həmzənin yanına getməyə hazırsan. Çox gözəl, elə isə sabah səhər orada olacaqsan".

Atamın dostu barəsində tarixin səhifəsinə yazılan qorxunc insan damğası onun bu qəbildən olan lüzumsuz, bihudə, hətta avara sözləri ilə həkk olundu. Mahiyyət etibarı ilə daşıdığı vəzifə özü qorxunc idi. Amma məhkəmə sədri sözlərini, hərəkətlərini belə qorxunc şəkildə ortaya qoymaya da bilərdi. Müttəhimlərə hadisələr haqda suallar verərkən "Siz günahkarsınız, siz məmləkəti fəlakətlərə sürüklədiniz, biz də düşmənlərimizi dünyaya gəlmələrinə belə peşman edirik" - kimi hədə-qorxulu sözləri söyləməyə də bilərdi. Dediyi iş onsuz da görüləcəkdi. Hər hansı bir vətəndaş türk millətini qaranlıqdan aydınlığa çıxarmaq üçün göstərilən səylərin bu şəkildə müdafiəsini, təbii ki, qəbul edəcəkdi. Hətta zaman-zaman xətalara, şəxsi intiqamlara, kinlərə, hiddətlərə bilərəkdən və ya bilməyərəkdən alət olmaqla bu işi öz üzərinə götürəcəkdi. Lakin məhkəmə sədri üçün vəzifəsini yerinə yetirərkən şəxsiyyətini də onun içində əritməyə, yox etməyə nə lüzum vardı?

Onun İstiqlal Məhkəməsi rəisliyi dövrün bir simvolu sayıla bilər. Bu dövrə "Təsviyələr (təmizləmə - V.Q.) dövrü" də demək mümkündür.

İttihad və Tərəqqinin təsviyəsi, İkinci qrupun təsviyəsi, Milli Mücadilə dövrünün müntəzəm orduları qurulana qədər Milli Qüvvələrin bir qismini təşkil edən silahlı dəstə başçılarının həyatdakı son nümayəndələrinin təsviyəsi... Nəhayət, 1908-1918-ci illər arası bəziləri yoxsulluq, səfalət içində qalmış millətin gözü önündə möhtəşəm həyat sürən, bəziləri eyni vəziyyətdə bərabər yola çıxdıqları yoldaşlarını iltimaslar, xahişlər, şans və təsadüflərlə birdən-birə bir neçə ağac arxada qoymaqları ilə qısqanclıqlar doğuran, bir qisim bu və ya başqa zamanda söylədikləri sözlərlə, gördükləri işlərlə gizli təsəvvürlərin, üstü örtülü saxlanan əməllərin gerçəkləşməsini ləngidən insanların təsviyəsi...

Çox qəribədir ki, bu böyük təmizləmə hərəkatı içində yoxa çıxmaları qətiyyən nəzərə çarpmayacaq və kimsəni təəccübləndirməyəcək bir neçə şəxs atamın dostunun sərt, əyilməz xarakterində özləri üçün ədalət qalxanı axtarmaq fikrinə düşdülər və gümanlarında yanılmadılar. Onlardan biri də mərhum Yenibaxçalı Şükrü[2] idi.

Yenibaxçalı Şükrüyə - uşaq saflığını, məhcub duruşunu, başına çoxlu bəlalar gətirən xoş gəvəzəliyini həyatının sonuna qədər əldən yerə qoymayan bu hərbçiyə aid ilk xatirəm atamla aralarında olan bir qalmaqalla bağlıdır.

1916-cı ildə atam İçərənköydə, Mömindərəsində[3] kiçik bağçası olan ev almışdı. Elə həmin il yay aylarını keçirmək üçün yeni bağa daşınandan bir neçə gün sonra həyətdə dolaşdığımız vaxt bir əsgər gəldi. Aşağıda, dərənin dibində çadır qurmuş bölüyün komandiri olan yüzbaşının (türk ordusunda kapitan rütbəsi – V.Q.) bir məsələ ilə bağlı atamı yanına çağırdığını dedi. Atam "Yüzbaşıya salamımı çatdır, gəlsin görüşək" – cavabını verdi. Bir azdan əsgər təkrar geri qayıdıb komandirin atamı yanına çağırdığını bildirdi. Atam da getməməkdə israr etdi. Beş dəqiqə sonra sağında-solunda iki əsgərlə arıq, qumralsaçlı, sifəti gündən yanıb qaralmış bir zabit az qala qaçaraq özünü yetirib atamın qarşısında dayandı, sərt səslə "Sənə xəbər yolladım, niyə gəlmirsən?" – deyə bağırdı. İndiki kimi gözüm önündədir: bir anda atam sapsarı saraldı, amma təmkinini pozmadı.

"Gəlmədim, çünki mənimlə danışmaq istəyən sənsən, - dedi. – Sonra, diqqət elə, gör yaşda səndən nə qədər böyüyəm. Nəhayət, sən yüzbaşısansa, mən də millət vəkiliyəm". Atam o sıralarda Osmanlı Məclisi-Məbusanında Afyonkarahisar məbusu idi.

Yüzbaşı eşitdiyi sözlər qarşısında bir anlığa tərəddüd etdi. Sonra "Kim olursunuz olun, bu, məni maraqlandırmır" – deyə əvvəlki sərtliyinə qayıtdı. Bu dəfə əsəbiləşmək sırası atama gəlmişdi. "Haydı, bütün əsgərlərini topla da, gəl. Görüm məni durduğum yerdən bir qarış tərpədə biləcəksinizmi? Üstəlik, sənin hərəkətin barədə Ənvər Paşaya da şikayət edəcəyəm!"

Bu sözlər yüzbaşını lap haldan çıxardı:

"Bəyəfəndi, millət vəkili olmağınıza deyil, yaşınıza hörmət edirəm. Ənvər Paşaya şikayətə gəlincə, heç dayanmayın. Lap bu dəqiqə gedin. Zatən həyatından bezmiş adamam. Mənə nə edə bilər?"

Sonra əsgərlərini yanına alıb geri qayıtdı.

Aradan illər keçdi. Böyük zəfərdən bir neçə ay qabaq bir gün atamla birlikdə Ankarada "Hakimiyyəti-Milliyyə" qəzetinin yerləşdiyi binanın qapısından içəri girərkən pilləkənlərdən enən ucaboylu gənc adamla qarşılaşdıq. Atam onun əlini məhəbbətlə sıxaraq "Necəsən, Şükrü bəy?" – deyə soruşduqdan sonra üzünü mənə çevirdi: "Erenköydə[4] məni döymək istəyən zabit yadından çıxmayıb ki? Bax, bu adamdır!"

Şabalıdı rəngli gözlərində nəşəli işıqlar yanan sevimli bir üz mənə baxaraq gülümsəyirdi.

Erenköydəki əsgərlik həyatından usanmış yüzbaşı aradan keçən illər ərzində min bir macəradan çıxıb sonda Birinci Böyük Millət Məclisinin üzvü olmuşdu. Onun macəralarından dillərdə dastana çevrilənlərdən biri gələr-gəlməz Ərkani-Hərbiyi-Ümumiyyə (Ali Baş Qərargah – V.Q.) rəisliyinə təyin edilib hökumətin tərkibinə daxil olan, ardınca da dalbadal ən yüksək dövlət məqamlarına yüksələn bir şəxsi – İsmət Paşanı, bəzi rəvayətlərə görə, yarı xoş, yarı zor İstanbuldan Ankaraya qaçırması idi.

Həhayət, hansı səbəblərin göstərilməsindən asılı olmayaraq, Birinci Dünya Hərbinin Ənvər Paşa və silahdaşlarının qorxunc məğlubiyyəti ilə başa çatdığı hər kəsə aydın idi. Savaşı uduzan, ölkəni ağır vəziyyətdə qoyub qaçan bir liderin təkrar səhnədə görünməsi millətin iradəsini, mübarizə əzmini qıra bilərdi.

Bu sadə həqiqətləri Yenibaxçalı Şükrüyə başa salmaq və qəbul etdirmək çox çətin oldu. Rus sərhədində məqam gözləyən əski baş komandan müavininin yurduna buraxılmamasına görə bərk əsəbiləşib özünü İkinci qrupun ağuşuna atdı. Sadəcə bu qədər! Atatürkə sui-qəsd işi ilə bağlılığı məsələsində də yalnız mərhum Nail bəyin qardaşı olmaqdan o yana gedə bilməzdi. Ancaq İkinci qrup üzvlüyü, Ənvər Paşa heyranlığı, ağzını Allah yoluna qoyub orada-burada gəvəzəlik eləməyi, nəhayət, bir insan kimi kəmhövsələliyi və səbirsizliyi sonda başına bəla oldu. Bunu anladığı anda özü öz əməllərindən qorxdu, gizlənməyə qərar verdi. Amma nə fayda ki, qovalayan da işində qabağından qaçan qədər mahir idi, İstiqlal Məhkəməsinin rəisi Qara Kamal kimi onun da gizlənə biləcəyi ən dalda yerlər barəsində məlumatlı idi. Ətrafındakı dairə hər gün bir az daha daralır, hərəkət imkanları məhdudlaşırdı. O zaman özü-özünə sual etdi: "Əgər günahım yoxsa, niyə qorxmalıyam?" İstiqlal Məhkəməsi rəisinin qəzəbli üzünü, qalın qaşlarını, hirslə qıyılmış kiçik gözlərini yada saldı. Boğuq səsini eşidirmiş kimi oldu. Bu baxışlardan, bu səsdən mərhəmət gözləyə bilməzdi. Həqiqətən belə idi! Amma bu üzün və səsin başqa şöhrətləri də yox deyildi! Həyatında dedi-qoduya əsla önəm verməzdi. Özünü göstərməyi sevmirdi. Ağlı işləmədiyi yerdə imanı ilə hərəkət edirdi. İnanmadığı məqamda sadəcə kölə ruh və zehniyyəti ilə gördüyü hər hansı işi də yadına sala bilmirdi. Belə vəziyyətdə suçlu olduğuna, yaxud suçsuz da olsa, ölümünün məmləkətə bir şey qazandıracağına ürəkdən inanmayınca, ondan özünə qarşı hansısa bir pislik gözləməyə bilərdi. Ölümü, üstəlik də günahsız öldürülməsi məmləkətə, yaxud hər hansı şəxsə əsla başucalığı gətirməyəcəkdi. Yenibaxçalı Şükrünün hər kəsə yaxşı bəlli olan bir xüsusiyyəti də qorxubilməz adam kimi tanınması idi.

Yenibaxçalı Şükrünün siyasi fəaliyyət çevrəsi Birinci Məclis üzvlüyündən, böyük qardaşı, əski İttihad və Tərəqqinin məsul şəxslərindən olan və sonralar Atatürkə sui-qəsd işində edama məhkum edilən Nail bəydən[5], bir də çoxu siyasət səhnəsinin müxtəlif pillələrində yer tutan dostlarından ibarət idi. Nəhayət, Ənvər Paşa heyranlığından doğan böyük rəğbətini bu fəaliyyət dairəsinə daxil etmək mümkündür. Erenköydə həyatından usanmış bir insana Ənvər Paşanın nə edə biləcəyini bir az da kin-küdurətlə atamdan soruşan gənc zabiti tale bir müddət sonra türk orduları baş komandanının yavəri edəcək, o da Ənvər Paşaya – özü kimi gözəl, məhcub üzlü, xoş baxışlı, son dərəcə cəsur, risklərdən qorxmayan adama könlünü verəcəkdi. Qaziyə bəslədiyi bütün sevgiyə, inam və imana rəğmən, Yenibağçalı Şükrünü İkinci qrupun yanına çəkib aparan da Ənvər bağlılığı idi. Sui-qəsd hadisəsindən sonra məmləkətin bütün polis təşkilatını Qara Kamalla birlikdə arxasınca aparan yenə bu bağlılıq oldu.

Yenibaxçalı Şükrü Milli Mücadilə illərində Qazinin Ənvər Paşanı heç bir halda məmləkətə buraxmamaq barəsindəki qərarının vacibliyini heç cür anlamaq istəmədi. Əslinə baxanda Atatürkün Milli Mücadiləni zəfərlə başa çatdırmasına təkan verən ən mühüm qərarlarından biri məhz elə həmin qadağa idi. Əgər Ənvər Paşa geri dönə bilsəydi, nəticə bu qayıdışı cani-könüldən arzulayan Şükrü bəy tipli səmimi insanların zənn etdikləri kimi iki qəhrəmanın əl-ələ verib qurtuluş savaşı aparmaları şəklində meydana çıxmayacaqdı. Əksinə, ölüm-dirim mücadiləsi içində olan məmləkətin birinin başında Ənvər, o birinin başında isə Mustafa Kamal Paşanın dayandıqları iki cəbhəyə parçalanmasına təkan verəcəkdi.

---

*[1] **Həzrəti Həmzə - Həmzə ibn Əbdülmüttəlib əl-Haşimi (568-625) – Məhəmməd Peyğəmbərin əmisi, süd qardaşı və ən yaxın silahdaşı. Uhud döyüşündə həlak olmuşdu.***

*[2] **Yenibaxçalı Əhməd Şükrü (1881-1953) – çərkəz əsilli türk hərbçisi, İttihad və Tərəqqinin hərbi qanadının fəal üzvlərindən biri. I TBMM üzvü. Atatürkə sui-qəsdlə bağlı haqqında edam qərarı çıxarılsa da, sonda bəraət almağa müvəffəq olmuşdu.***

*[3] **İçərənköy, Mömündərəsi – İstanbulun Ataşehir səmtində tarixi məhəllələr.***

*[4] **Erenköy – İstanbulun Kadıköy səmtində tarixi məhəllə***

*[5] **Nail Yenibaxçalı (1885-1926) – türk hərbçisi, İttihad və Tərəqqinin fəallarından biri. Atatürkə sui-qəsd cəhdində ittiham olunaraq dar ağacından asıldı.***

*Davamı gələn sayımızda*

**Tərcümə edən:
Vilayət QULİYEV, professor**



**Dünyada tərcüməsiz, sərhədsiz anlaşılan sənətlərdən biri də rəssamlıqdır. Rəssamlıq çox incə və maraq doğuran sənətdir. Rəssamlar öz yaradıcılıqları ilə sənət və estetik ruhun dərinliklərindən bütün insanlıq aləminə bir sevgi, bir təmizlik aparır. İşıqla kölgənin, simvolla mətnin, sözlə mənanın freskaları üzərində bu işıqlı dünyamızı təəccübləndirən rəssam Rəşad Ələkbərovun bugünlərdə Yay Qaleriyasında "Something From Nothing" (Heçdən heçə) adlı Bakıda ilk fərdi sərgisi açılıb. Rəssamın firçası adi məişət əşyaları, rənglərin kölgələridi. Əsasən işıq – kölgə vasitəsiylə rəsmlər meydana gətirən rəssam Rəşad Ələkbərov öz yaradıcılığında firçanın sehrini işığın sehrinə çevirib, firçanın dünyasını öz gözləri ilə işıqla bərabərləşdirib, kölgə dünyasının qapısını döyən, astanasında deyil, tam iç dünyasında bütün rənglərlə bu dünyamıza qonaq gətirərək fəlsəfi düşüncə simfoniyası, rənglər kölgəsinin akkordları ilə düçüncə iqlimli səyahəti təqdim edir. Rəssamın yaratdığı sadə, sadə olduğu qədər də mükəmməl sənətlə tanış olduqda, ayrılmaq istəmirsən bu duyumlu, səssiz, amma özü qədər də kamil, zaman və məkan düşüncələrini dayandıran, canda nəfəsi, ürəkdə döyüntüyə "səs salma!" deyən sehrli dünyadan...**

# Kölgə ilə işığın vəhdətindən doğulan sənət



Dekorativ sənətə meyil, aktual incəsənəti əks etdirən kölgələrin fəlsəfi, sərhədsiz dili ilə səni səndən xəbərsiz alır çox uzaqlara, çox dərin düşüncə dünyasına ... Rəssam daha da irəli gedərək, hətta dünyamızı narahat edən qlobal problemlərə münasibət bildirir, onun həlli yollarını işıqlandırır. "Layihəyə görə sərgi hazırlayıram" deyən rəssam qlobal tədqiqi axtarışlarını fikrin aydınlığında, gücün vəhdətində axtarır .

Nədir bu cəsarət? Hansı mistik işıqdan güc alırsan? Bu ruhun gücü haradan gəlir? Bu hisslər haradan qaynaqlanır?.. Bəlkə yox olmuş bir ölkənin xarabalıqları arasında tam bir tarixi əks edə biləcək, toxunulmamış qalmış abidə aşkarlananda yaşanan ali hisslər qədər əvəzsizdir bu? Yoxsa Tanrının Turan elinə göndərdiyi sevgi payından pay alıb, bəlkə həyat bulağından su içəndə Oğuzun sevgisi ilə müjdələnib... Bəlkə də Oğuzun Boz ox, Üç ox sevgisini qət edib, Bayat boyunda, Bayat elindən, yoxsa 2500 illik tarix yolunun yolçusu "Altun geyimli türk şahzadəsi" kimi elə Oğuzun kölgəsindən ruhlanıb?

Böyük Hun İmperatorluğundan gələn ruhunda Türk sevgisi, nəfəsində Turan eşqi olan Attila, Bilgə Xaqan, Alp Arslan, Məlik Şah... daha kimlər..., Sultan Bəyazid... Səfəvilər... daha kimlər... Tanrıdan gələn od istəyini, ocaq ruhunu qorudular, onu sönməyə qoymadılar. Bəlkə sönməməsi üçün verdikləri o nəfəsdənmi ruhlanıb? Bu ruhun sahibi, Tanrı köməyin olsun!

## Həyatının izləri

Hər dövrün öz qəhrəmanı, hər sənətin öz tarixçisi... Zamanın qanadında ümidlə irəliləmək. İnsanın ruhunda, xislətində sənətkarlıq, yaradıcılıq varsa, hətta hansı ixtisasda çalışmağından asılı olmayaraq öz sözünü deyir, özünü göstərir! Tarixdə əsrlər boyu yaradıcı insanlar izlər qoyub.

Möhtəşəm 387 əsər yaradan Memar Sinanın ancaq "Sultanahmet" və ya "Səlimiyyə"ni təkrar yarada bilən bir yox, on yox, 100 belə memar yenidən birgə çalışsa da, faydası olmaz, bunu bir də təkrarlaya bilməzlər... XII əsrdə Site adasının şimal-qərbindəki Luvr adı ilə dünyada məşhur olan əzəmətli və gözəl saray bir çox yüzilliklərdir insanları valeh edir. Qara Qarayevin "İldırımlı yollarla", Mehmet Akif Ersoyun "İstiqlal marşı" və s. bu kimi əsərlər ruha qida verdikləri üçün insanlıq tarixi var olduqca yaşayacaq. Həyatda hər şey öz axarı ilə gedərsə, hardasa, qəlibləşmə baş verər. İnsan əhli daima kamilləşir, təkmilləşir, qeyri-adiliyə can atır. Məsələn, ABŞ alimləri bugünlərdə Albert Eynşteynin hələ 1915-ci ildə iddia etdiyi qravitasiya dalğalarını qeydə alıblar. Bu, Yer kürəsindən 1.3 milyard işıq ili məsafədə yerləşən və günəşdən 30 dəfə böyük olan iki "qara dəliyin" toqquşmasının nəticəsində qeydə alınıb. Və ya yazıb-oxumaq təlimi ala bilməyən Aşıq Ələsgərin adi söhbətlərində, məclislərdə bədahətən söylədiyi şeirlər yaddaşlarda yaşayıb, neçə illər sonra toplanıb çap olunaraq elmi tədqiqata cəlb edilərkən, burdakı mətləblər hamını heyrətləndirib. Rəssamlıq sahəsində də eyni qəribəliklər görünməkdədir. Salvador Dali "Yaddaşın daimiliyi" ("Yumşaq saatlar") tablosunu Eynşteynin nisbilik nəzəriyyəsinin təəssüratları ilə yaratmışdı. Rəssam Rəşad Ələkbərov da kölgə – işıq rəsmləri ilə həyatın maraqlı izlər qalereyasında öz sözünü, öz dəst-xəttini, öz guşəsini yarada bilib.

## Rəssamlıq tarixçəsi

Rəssamlıq tarixinə istinadən qeyd edilir ki, ibtidai rəssamlıq nümunələri Poleolit dövründən, yəni e.ə. 40-20 min qabaqki dövrdə – Daş dövründən yüzilliklər aşaraq, günümüzə gəlib çatan zəngin dünyəvi irsimizdir. Azərbaycanda ən qədim mədəniyyət nümunələri Mezolit dövrünün əvvəllərinə təsadüf edir.

## Doğma məkan Azərbaycan

Müstəqillik illərində Azərbaycanda rəssamların sosial rifahının yaxşılaşdırılması üçün dövlət səviyyəsində tədbirlər görülməkdə davam edir. Azərbaycan Dövlət Akademiyası 2002-ci ildə Ümumilli Lider Heydər Əliyevin fərmanı ilə yaradıldı. Rəssamlıq sənətinə və rəssamlara olan diqqət Prezidentimiz İlham Əliyev tərəfindən bu gün yüksək səviyyədə davam etdirildi. 2013-cü ildə Rəssamlıq Akademiyasının yeni korpusu tikilərək istifadəyə verildi.

Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban Əliyeva, Fondun vitse-prezidenti Leyla Əliyeva tərəfindən də incəsənətə – rəssamlıq sahəsinə böyük qayğı göstərilir. Rəngkarlıq sənətində öz sözünü demiş rəssamlarla yanaşı, ən gənc rəssamlara qədər bütün istedadlı firça ustalarının işləri dünyada təbliğ olunur. Elə bizim yazının qəhrəmanı rəssam Rəşad Ələkbərovun yaradıcılıq karyerası bu diqqət və qayğının əyani təzahürüdür.

Rəşad Ələkbərovun sənət və həyat tarixçəsi: Rəşad Ələkbərov 1979-cu ildə Bakıda anadan olub. 2001-ci ildə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının dekorativ tətbiqi sənət fakültəsinin məzunu olan Rəşad Ələkbərovun yaradıcılıq dairəsinə rəngkarlıq, heykəltəraşlıq, teatr dekorasiyaları, video, memarlıq dizaynı daxildir.

## Rəssamın fərdi sərgilərinin qısa xronologiyası:

**2014**

- **Sözlər, Müasir İncəsənət Muzeyi, Bakı,Azərbaycan**
- **Vienne Art Fair, Vyana, Avstriya**
- **İslamic Art Festival, İslamic Art Fondu, Şarja, BƏƏ**
- **Candy Monuntains And Oil Coasts, Perm Müasir İncəsənət Muzeyi, Perm, Rusiya**
- **56-cı incəsənət Venesiya Biennalesi, The Union of Fier and Water, San Marco 2840 Palazzo Barbaro, Venesiya, İtaliya**
- **Tarix yazılarkən, YARAT Müasir İncəsənət Məkanı daimi kolleksiyası, Bakı, Azərbaycan**

**2014**

- **Here Today..., London WC1, London, Böyük Britaniya**
- **Cosmoscow Art Fair, Manej, Moskva, Rusiya**
- **Artbat Fest, Almatı, Kazaxstan**
- **Delfina Fondu, rəssamlar üçün rezidensiya proqramı. London, Böyük Britaniya**
- **İn Between, Viewpoint, Michela Rizzo Qalereyası, Venesiya, İtaliya**
- **The Process,12-ci Avesta İncəsənət Festivalı. İsveçrə**
- **Love Me Love Me Not, Azərbaycan və qonşularından müasir incəsənət sərgisi, Heydər Əliyev Mərkəzi, Bakı, Azərbaycan**
- **World And İllumination, İn Cooperation With The British Museum, Le Meridien Medina Hotel, Mədinə, BƏƏ**
- **East Wing Biennial, Courtauld İncəsənət İnstitutu, London, Böyük Britaniya**
- **İslamic Akt Festival, Sharjah, UAE**
- **Tullantıdan İncəsənətə, Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksi, Bakı , Azərbaycan**
- **Birləşən Körpülər, Müasir İncəsənət Muzeyi, Bakı , Azərbaycan**
- **Qız Qalası III Beynəlxalq İncəsənət Festivalı, Bakı , Azərbaycan**
- **012 Bakı İctimai Sənət Festivalı, Bakı, Azərbaycan**

## Və son söz əvəzi...

Sizin sənətinizə qiymət verən və bütün bu gözəllikləri bizlərə çatdırmaqda yardımçı olan təşkilatçılara xüsusi minnətdarlığımız var.

Daha böyük, bütün sənətsevərləri təəccübləndirəcək, düşündürəcək, bəşəriyyəti narahat edən qlobal problemlərin həllinə istiqamətləndirəcək yeni-yeni layihələriniz uğur küləyi ilə yaradıcılıq qapınızı döysün. Heç şübhəsiz ki, gələcəkdə də əsərlərinizlə zövqləri fəth edəcəksiniz. Sizə bu yolda fateh mətinliyi və yeni-yeni yaradıcılıq kəşfləri arzu edirəm.

**Aytən AYDINQIZI,**
**Filologiya üzrə fəlsəfə doktoru**

**XVIII əsrin birinci yarısı – Səfəvilər sülaləsinin son dövrü və Nadir Şah Əfşar imperiyasının mövcud olduğu qısa müddət Azərbaycan tarixinin ən gərgin və maraqlı dövrlərindən biridir. Bu da təsadüfi deyil ki, həmin dövrdə yazılı və şifahi ədəbiyyat, xəttatlıq, miniatür sənəti inkişaf edib, baş verən hadisələri əks etdirən salnamələr qələmə alınıb. Nadir Şahın münşisi Mirzə Mehdi xan Astrabadi məhz həmin dövrün ən etibarlı salnaməçisi sayılır. Onun mətbuatda tam şəkildə ilk dəfə işıq üzü görəcək tarixi sənədlər toplusundan ibarət "İnşa" əsərini qəzetimizin oxucularına təqdim edirik.**

# Mirzə Mehdi xan Astrabadi və onun "İnşa" əsəri



*(Əvvəli ötən saylarımızda)*

Pişəvərin və eləcə də sabiq hökmdarların iqamətgahları olmuş paytaxt Lahorun nə cür ələ keçirilməsi haqqında o əzizə bundan öncə yazılmışdı. Şəvvalın sonunda paytaxt Lahordan hərəkətə keçib ziqədə ayının onunda cümə axşamı günü Şahcahanabaddan qırx fərsəng[1] aralı yerləşən Əsalə qəsəbəsinə daxil oldular. O yerdə xəbər çatdı ki, Məhəmməd şahın da Hindistanın bütün məmləkətlərindən toplanmış qoşunu, başçıları, xanları, əmirləri, üç yüz minlik ordusu, iki min ərradəsi[2] və üç min zəncir döyüş fili ilə tam hazır vəziyyətdə hərəkət edib Ənbalənin iyirmi fərsəngliyindəki Mali Bistə daxil oldu. Biz humayun hökmdar yol azuqəsini, ağruğunu[3], malını və yükünü orada qoyub qazilərlə birlikdə döyüş əzmi ilə ilğara[4] keçdik. Məhəmməd şah da Malibistdən[5] hərəkət edərək bir keçidə Şahcahanabaddan iyirmi fərsəxlik məsafədə olan Kərnal adlı yerə gəlib dayandı. Dünyanı fəth edən bayraqların hərəkəti zamanı gedib o yerləri, vəziyyəti və Məhəmməd şahın nəyə qadir olduğunu öyrənmək üçün qazilərdən beş-altı min nəfəri qarovula[6] təyin etdik. Qarovulçular Kərnalın iki fərsəngliyinə qədər irəliləyib qarovulla müqəddəmətül-ceyşi[7] təşkil edən on-on iki min nəfərlə üz-üzə gələrək onları biabırçı halda qırıb darmadağın etdilər, başçılarını və daha neçəsini diri olaraq ələ keçirib müqəddəs hüzura gətirdilər. Bu cür əzilləndən sonra bir daha hərəkət etmək Məhəmməd şaha müyəssər olmadı və o, böyük səngər və möhkəm istehkam qurub topxanasını səngər boyu yerləşdirdi və ümidini döyüşün səngər-topxana üsuluna bağladı. Biz cümə günü Kərnaldan keçib Məhəmməd şahın ordusunun şərqində Cahanabad yolunun üstündə qarovulluğu yerinə yetirmək üçün bir dəstə təyin etdik. Ayın on beşi, çərşənbə axşamı gecə vaxtı xəbər gətirdilər ki, bürhanül-mülk, bir neçə məmləkətin sahibi və o dövlətin əmirlərindən olan Səadət xan otuz min nəfərlik camaatla, fillərlə və topxana ilə Mali Bistə daxil olub Məhəmməd şahın ordusuna doğru irəliləyir. Müzəffər bayraqlar səhərin açılmasına iki saat qalmış yola düşüb Məhəmməd şahın ordugahının şərqində Kərnal ilə Mali Bistin arasında mövqe tutdular ki, bəlkə Məhəmməd şah səngərdən çıxar. Çərşənbədən saat yarım keçmişdi ki, humayun dəstə Kərnalın yanından keçib Məhəmməd şahın ordusunun şərq səmtində o qarovulların yaxınlığında bayrağını göyə ucaltdı. Arxadan yetişmiş Kamal xanın qoşununun bir dəstəsindən xəbər gəldi ki, Səadət xan həmin çərşənbə axşamı gecədən üç saat keçincə öz qoşunu ilə Məhəmməd şahın səngərinə daxil oldu. O yerlə Məhəmməd şahın ordusu arasında məsafənin bir fərsəng olduğunu nəzərə alaraq iqamət çadırımızı Məhəmməd şahın ordugahının düz qarşısında yerləşdirməyi əmr etdik. Səadət xanın gəlişi ilə Məhəmməd şahın bütün nigarançılığı aradan qalxdı və o, özünün üç yüz min nəfərini düzüb günorta vaxtı ordusunu iki hissəyə böldü. Bir hissəsini topxana ilə ordugahı qorumaq üçün [içəridə saxladı], o biri hissəni isə çölə çıxartdı və döyüş filləri, hərbi avadanlıq və sursatla humayun ordudan yarım fərsəng aralı tam hazır vəziyyətdə vuruşmaq üçün sıraya düzdü, özü təpədən dırnağa qədər yaraqlanmış halda önə çıxdı və ordusunu arxasında qoyub dayandı. Onların bu izdihamlı kütləsi o həddə idi ki, baxanın gözündə ordu sırasının uzunluğu bir fərsəng kimi görünürdü. Hər halda, onların döyüşçülərinin sayı Abdullah paşa Köprülü oğlunun ordusunun on-on beşinə bərabər olardı[8].

Bu günün arzusunda olan biz humayun hökmdar hamıya fərman verdik ki, Allaha təvəkkül edib döyüş üçün atlara minsinlər və gündüz saat ikidə top-tüfəngli və qılıncqalxanlı həngamə qızışdı. "Yardım yalnız Allahdandır"[9] kəlamında deyildiyi kimi, İlahi şəfqət ilə Tanrının verdiyi güc bizə yardım oldu və müxalif ordu "fırtınalı bir gündə küləyin apardığı külə bənzəyir"[10] ifadəsinə müvafiq şəkildə sarsıldı, hamısı birdən üzlərini döyüş meydanından döndərib dağıldı. Səadət xan öz fili və kəcavəsi ilə, qardaşı oğlu Dilşad xanla və bütün qohumları ilə birlikdə diri ələ keçdi, Səmsamüddövlə Xani-dövran, Hindistanda bütün vəzifələrə təyinetmə ixtiyarının sahibi olmuş əmirül-ümərа Bəhadır, İman xan, Hərəklü (?) xan, Əli Məhəmməd xan, Həsən xan Kükə (?), Əşrəf, Aqil xan, Şahsüvar xan Zərrinrəy, Yaxşı xan Topxana, çoxlu cavan uşaq və təqribən yüz nəfər başqa əmir və xan, o cümlədən, on-on beş nəfər həfthəzari[11] və çaharhəzari[12] öldürüldülər. Məhəmməd şah və onun vəkilüddövləti olmuş yeddi əyalətin sahibi Nizamülmülk, vəziri-əzəm[13] Qəmərəddin xan və xanlardan daha neçə nəfər öz səngərləri yanında sıraya düzülüb durmuşdular və bununla qazilərin qılınc zərbələrindən nicat tapa bildilər. Təxminən iki saat qazilər o tayfanı qətlə yetirməyə məşğul oldular və günün sonuna bir saat qalmış döyüş meydanı onlar üçün daraldı və onlar səngərə daxil oldular. Məhəmməd şahın səngəri möhkəm qala kimi qurulduğuna görə qazilərə yürüş etməyə icazə verilmədi. Qazilər çoxlu xəzinələri, dağcüssəli filləri, padşahın topxanasını və bir xeyli mal ilə qəniməti ələ keçirdilər. O camaatdan iyirmi min nəfər qətlə yetirildi və bir çoxu diri əsir düşdü. Bu fəthnişan hadisə baş verəndən sonra qazilərə dörd tərəfdən yolun başına toplanmağı əmr etdik. Toplarla sursatı səngərin ətrafına yığıb səngəri hamarlamağı qərara aldıq. Bu işin icrası çətinliklə üzləşdiyinə görə tədbir yalnız bir gündən sonra ayın yeddisi cümə axşamı başa çatdı. Məhəmməd şah tərəfindən yollanmış Nizamülmülk humayun ordugaha daxil olub ən müqəddəs hökmdarın hüzuruna vardı və elçilərin adından üzr istədi. O biri gün şah da öz əmirləri və xanları ilə xəcalət içində fələktəkin ordugaha daxil oldu. Adıçəkilən padşahın gəlişi vaxtı biz humayun hökmdarın türkman və həmin padşahın da türkmanlardan və Gürgani sülaləsindən olduğunu nəzərə alaraq, əziz cavan oğlanlardan olan arzusuna çatmış Nəsrullah Mirzəni humayun ordugahın girişi önündə [Məhəmməd şahı] qarşılamaq üçün göndərdik. Adıçəkilən padşah uca ordugaha daxil olub səltənətin tacı ilə möhürünü təhvil verdi və o gün mübarək çadırda qonaq oldu. Türkmanlıq adətlərini əsas tutaraq o həzrətə həddindən artıq lütf ilə mərhəmət göstərdik və hökmdarlara layiq izzət ilə təmkinlik nümayiş etdirdik. Biz o həzrətin qaldığı çadırı və möhtərəm hərəminin çadırını da şan-şöhrət içində qərar tutduq. Halhazırda həmin padşah öz ailəsi və bütün Hindistan əsirləri ilə humayun hökmdarın ordugahında şərəfli yerini almaqdadır. Humayun ordunun müqəddəmətül-ceyşi paytaxt Şahcahanabada daxil olub və ziqədə ayının iyirmi altısı çərşənbə axşamı günü göyə ucalan bayraq Cahanabad istiqamətində irəliləyir. Bizim müqəddəs arzumuz odur ki, inşallah, adıçəkilən padşahı türkman soyundan və sahibqıran nəslindən olduğuna görə, türkmanlıq adəti üzrə yenidən səltənətin başında yerləşdirib Hindistan dövlətinin tac ilə möhürünü özünə həvalə edək.

"Həmd olsun və bir də həmd olsun bizə mərhəmətini bağışlayan Allaha və şükr olsun və bir də şükr olsun bizə doğru yolu göstərən Allaha". Əlbəttə, bu cür inayət ilə hüsni-rəğbət yalnız Xudavəndin göstərdiyi sonsuz lütf ilə mərhəmətin təzahürüdür. Biz ələ keçirdiyimiz topları iyirmi minə yaxın İran və Turan döyüşçüsü və fillərin bir hissəsi ilə Kabilə yolladıq. Əlbəttə, o əziz o yerin əhvalatını ərz edəcəkdir və o əzizin ərizəsi gələndən sonra biz o tayfaya Kabildən Bəlx istiqamətində hərəkət etməyi və oradan Herata doğru irəliləməyi tapşıracağıq. Biz hörmətli Aşur xana novruzi-firuzdan sonra Bəlxə yola düşməyi və bu parlaq fəthi Allahın ən böyük ətası və nəhayətsiz inayəti bilib humayun hökmü ata minərək vətənimizin bütün məmləkətlərinə çatdırmağı əmr etdik ki, dövlətimizin tərəfdarları üçün toy-bayram etməyə səbəb olsun, bədxahlarımız isə çarəsizlikdən yasa bürünsünlər. Allahın köməyi ilə çalışmaqda olan ölkə məmləkətləri dəstəklənərək başlarını uca tutsunlar, çünki, inşallah, bundan belə böyüklü-kiçikli, yaxında-uzaqda bu Nadirə dövlətinə müxalif olanların hamısı cəzalarına çatacaqlar və öz sədaqət ilə itaətini göstərən hər kəs əbədi dövlətin amallarına yetişəcəkdir.

**1151-ci ilin ziqədə ayında[14] yazılmışdır.**

---

[1] *Fərsəng (fərsəx) – təqribən altı kilometrə bərabər olan uzunluq ölçüsü, ağac.*

[2] *Ərradə – top daşımaq üçün araba.*

[3] *Yəni, "ağır şeylərini"*

[4] *Yəni, "hücuma", " həmləyə"*

[5] *Malibist (və ya Mali Bist) – bu coğrafi məkanın harada yerləşdiyi məlum deyil.*

[6] *Qarovul – (burada) ordunun ön dəstəsi.*

[7] *Müqəddəmətül-ceyş – ordunun qarovuldan sonra gələn hissəsi.*

[8] *Nadir şahın Qars döyüşündə qalib gəldiyi Osmanlı ordusunun başçısına işarədir.*

[9] *Ənfal. 10.*

[10] *İbrahim. 18*

[11] *Həfthəzari – yeddi min nəfərlik hərbi hissənin başçısı.*

[12] *Çaharhəzari – dörd min nəfərlik hərbi hissənin başçısı.*

[13] *Vəziri-əzəm – baş nazir.*

[14] *Bu cümlənin mənası aydın deyil. Miladi təqvimi ilə 1739-cu ilin mart ayına müvafiqdir.*

*(Davamı gələn sayımızda)*

# Azərbaycanlı aktyorun rus həmkarlarında olmayan özəlliyi

**Rejissor Anna Fençenkonun 2010-cu ildə çəkdiyi "İtkin düşmüş" adlı filmi Bakıda bugünlərdə nümayiş olundu. Əslində ekran əsəri bir neçə məqama görə azərbaycanlı tamaşaçı üçün də əhəmiyyət kəsb edir. Təbii, əyləncə məqsədi güdməyən bu müəllif filmi bütün dünyadakı düşünən adamlar üçün nəzərdə tutulub, burası bəlli. Bununla belə, onu bizim üçün maraqlı edən başqa özəlliklər də var. Amma əvvəlcə film barədə qısa, ümumi məlumata nəzər salaq.**

**Bu, Anna Fençenkonun ilk debüt işidir. Filmdə Andrey Filippak, Polina Kamanina, Lüdmila Geroyeva, Yuris Lautsinş, Polina Filonenko, Andres Puustusmaa və başqaları rol alıblar. Filmin operatoru Eduard Moşkoviç, bəstəkarı və prodüseri isə Andrey Sinqledir. Film "Proline-film" şirkəti tərəfindən Qorki adına kinostudiyada istehsal edilib.**

97 dəqiqəlik ekran əsərinin ikinci adı ssenariyə uyğun olaraq "Şəhərdən çıxmamaq barədə iltizamnamə" adlanır. Xatırladaq ki, filmin ssenari müəllifi Natalya Repinadır. Film mədəniyyət və ədəbiyyat adamları üçün həm də ona görə əlamətdardır ki, orada incəsənətin əbədi mövzularına toxunulur. Bu barədə də bir qədər sonra ətraflı danışacağıq. Hələlik əsərin aldığı mükafatlardan bəzilərini sadalayaq: Fransa ("Festival de Films de Femmes de Creteil", 2011) kinofestivalında əsas mükafat; Litva "Serseliafam" kinofestivalında əsas mükafat (2010); "Kinotavr"da ən yaxşı debüt üçün mükafat; Polşa kinofestivalında"Warsaw Film Festival" (2010) xüsusi mükafat.

Amma bu da hamısı deyil. Film bizim üçün həm də ona görə dəyərlidir ki, orada baş rollardan birini həmyerlimiz, aktyor Rasim Cəfərov ifa edir.

## İki dünya arasında - yaşam üçün vəsait

Baş qəhrəman (Andrey Filippak) proqramçıdır, yaxşı qazanır, özünün həyatdan bir qədər də təcrid olunmuş dünyasında rahat ömür sürür. Amma bir gün məlum olur ki, onun azadlığı əslində ilğımdan başqa bir şey deyilmiş. Təsadüf nəticəsində o, hər şeyini – evini, işini, kimliyini və hətta adını belə itirir. Və keçmiş proqramçı heç bir anlam verə bilmədiyi qəribə hadisələrin iştirakçısına çevrilir. Taleyin sükanı onun əlindən çıxır, ömrü isə qaçhaqaçda- qovhaqovda keçir: yad mühitlərə düşür. Qəhrəman sanki dəhşətli bir yuxu yaşayır və ayılmaq, bu mənasız gərdişi saxlamaq, onu narahat edən başlıca suala cavab almaq istəyir...

Filmin qəhrəmanı sosial aləmdən təcrid olunub, buna görə də xırda bir həyat hadisəsi ilə qarşılaşanda faciə yaşayır. Onun başına nələrin gələcəyi isə məlum deyil.

Film həm də günahsız adamın caniyə çevrilməsi barədədir. O, ifadə verməli olan şahid kimi şəhərdən çıxmamalıdır, amma adamın evini sökürlər, onun ünvanı yoxdur, tərslikdən, kimlik kartını – pasprotunu da itirib, beləcə, qəhrəman problemini anlatmağa getdiyi polis bölməsindən qaçmalı olur.

Ekran əsəri həm də həyat vəsaiti kimi maraq kəsb edir. Çünki bu dünyada heç kəs heç nədən sığortalanmayıb.

## Kafka var, ya yoxdu?

Ekran əsəri, sıradan tamaşaçı üçün maraqsız, darıxdırıcı görünə bilər. Amma kino tənqidçiləri arasında film ziddiyyətli fikirlər doğurub. Belə ki, rejissoru Frans Kafkanı və Andrey Tarkovskini uğursuz yamsılamada qınayanlar da oldu. Hərçənd, filmi bəyənənlərin arasında da eyni motivlərdən təsirlənmənin olduğunu deyənlər var. Maraqlıdır ki, Rusiyanın birinci kanalında yayımlanan məşhur "Qapalı baxış" ("Zakrıtıy pokaz") verilişində (yeri gəlmişkən, verilişə dəvətlilərin arasında aktyor heyəti, o cümlədən bizim Rasim Cəfərov da vardı) ssneari müəllifi hər hansı bəhrələnmə elementlərini qətiyyətlə rədd etdi. Amma, necə deyərlər, kor-kor, gör-gör, filmdə Kafka motivləri – labirint, reallıq hissinin itirilməsi, eksiztensiallıq, qəhrəmanın əbəs cəhdləri, hətta bir qədər də sürrealist yanaşma, süjetin yarımçıqlığı – az qala adamın gözünə girir. Bircə məqamı da qeyd edək ki, Kafkanın "Amerika" əsərinin də ikinci adı elə "İtkin düşmüş"dür. Ssenari müəllifi bütün bunları təsadüf adlandırır və qeyd edir ki, Kafkanın filmə heç bir dəxli yoxdur.

Təbii, fərqlər də var. Məsələn, Fençenkonun qəhrəmanı işdən çıxıb, onun ailəsi, dostları, tanışları yoxdur, bununla belə, əsas qəhrəmanın başına gələn problemlər tamaşaçıda ona qarşı mərhəmət hissi deyil, qıcıq doğurur. Qəhrəman infantillikdən əziyyət çəkir, məsuliyyəti üzərinə almaq istəmir, onun üçün ətraf aləm yükdür, əlavə qayğıdır. O, təcrid olunub – çünki belə yaşamaq asandır. Başqa sözlə, filmdə insanın acizliyi təsvir və tənqid olunur.

## Bizim haqqımızda film

Şübhəsiz, istənilən sənət əsəri insanla birbaşa təmasdadır. Çünki nəticə etibarilə sənət mütləq insana təqdim olunmaq üçündür. Amma Anna Fençenkonun filmi həm də bizə bir köynək yaxındır. Çünki hadisələrin baş verdiyi Rusiya kimi, Azərbaycan da sovet quruluşundan sonrakı keçid dövrünü və əlbəttə ki, onun problemlərini yaşadı. Bu mənada filmin qəhrəmanının passivliyinin başqa yozumu da var: azadlıq – qətiyyən rahatlıq deyil, bu, daha çox özünə və başqalarına qarşı məsuliyyət hissi, seçim imkanları deməkdir. Əksinə, azad olmayan adam rahatdır, çünki o, heç nəyi həll eləmir, əksinə, qulun yeməyi həmişə ağadan gəlir. Sovet quruluşu dağıldıqdan sonra keçid dövrü insanının xaos yaşaması təbii görünür.

Və ya filmin qəhrəmanını qloballaşma qurbanı kimi də qəbul etmək olar. Bunlar, əlbəttə, bizim fərziyyələrimizdir. Nə rejissor, nə də ssenari müəllifi açıqlamalarında bu barədə bir söz deyir.

Bəs müəlliflər nəyi qabardır? Daha dünyəvi, daha ekzistensial nəsnələri. Məsələn, adamlar müharibədə də, dinc həyatda da itkin düşə bilər. Bəs bizim yaşadığımız dünya necədir? Bu dünyanın özündə əmin-amanlıq varmı? Sülh həqiqətən mövcuddurmu? Yoxsa biz elə mahiyyətini anlamadığımız dünya ilə, ətrafla, özümüz və öz taleyimizlə daimi müharibədəyik?

Bəlkə qəhrəman elə ona görə itkin düşür ki, əslində o, heç kəsə lazım deyil, özü üçün də, cəmiyyət üçün də itirilib? Ümumiyyətlə, Anna Fençenkonun itkin qəhrəmanı kimdir? O, nəyin dalınca, nə üçün düşüb? Bu suallara cavab verilmir, rejissorun məqsədi də bu deyil. Məsələ başqadır. Belə ki, qəhrəman özündən uydurduğu bir dünyada yaşayır və onun real mövcudluğunun yeganə sübutu evi – ünvanı və şəxsiyyət vəsiqəsi – pasportudur. Qəhrəman bunlardan da məhrum olur. Sonra onun sərgərdan həyatı başlayır. Son isə görünmür. Hətta finalda da. O, taleyinin müəyyən mərhələsində qarşılaşdığı adamlardan aralanıb. O təkdir. Sonra nə olacaq? Bunu heç kəs bilmir. Bəlkə, o dayandığı yerdəcə özünü çaya atacaq ki, ömrünü bu cür sonlandırsın? Bəlkə çayı üzüb keçməyə cəhd göstərəcək? Bəlkə bütün bunlar onun gördüyü yuxu, ya təxəyyül məhsuludur? Məlum olmur. Hətta təəssürat yaranır ki, qəhrəmanın özü də heç nə bilmir. Və artıq heç düşünmək də istəmir...

Və əsas məsələ odur ki, Fençenkonun qəhrəmanı tək deyil. Sonda görünən kütlə buna işarədir – onlar da həyatdakı yerlərini, statuslarını itiriblər. Onlar nə edəcəklərini bilmirlər və heç nə etmək də istəmirlər.

Filmdə kadrarxası mətnlər çoxdur. Bunlar ümumi ideyaya xidmət edir. Bəzən səslərin sahibləri görünmür, bəlli olmur, bəzən sözlərin mənası anlaşılmır. Bu, ekran əsərinin ideyasına xidmət edir – kütlə psixoz içərisindədir. Əsərdə ironiya da var, incə yumor da, amma film daha çox dramatizmi ilə diqqət çəkir.

Çəkiliş zamanı pavilyonlardan istifadə olunmayıb. Film boyu görüntülər də ümumi auraya xidmət edir – daş çuvalı xatırladan ağacsız həyət, dar, qaranlıq dəhliz. Bütün bunlar dalana dirənmiş qəhrəmanın ovqatını nümayiş etdirir. Açıq havadakı çəkilişlər də hər hansı dəbdəbədən uzaqdır. Bu da təsviri yeknəsəqləşdirir, depressivlik hissini artırır və təbii ki, diqqətin yayınmasına imkan vermir. Üç kadr istisna olunmaqla, çəkilişlərdə ştativdən istifadə olunmayıb. Kameranın yalın əllə işlədilməsi hərəkət azadlığına imkan yaradıb – rejissor belə deyir.

## Xalqlar imperiyasında qafqazlı

Ekran əsərində müxtəlif xarakterlər yer alıb. Onların biri də digərini təkrarlamır, eyni zamanda vahid ansambl yaradır. Qeyd etdiyimiz kimi, filmdə yerli aktyorlarla yanaşı, soydaşımız Rasim Cəfərov da rol alıb. Rasim ekran əsərində qafqazlı David obrazını ifa edir. Təbii ki, David istiqanlı, emosionaldır, hisslərini daha həyəcanla ifadə edir, təqib olunarkən qorxur, təhlükənin arxada qaldığı məqamlarda sevinir, Andreyin passivliyini, bütün olanlara rəğmən etinasız tövrünü pozmamasını anlamır, o, düşdükləri vəziyyətdən çıxış yolu barədə düşünür. Bəlkə də, Davidin bu cəhdləri sadəlövh görünür, bununla belə, o, qətiyyən passiv təsir bağışlamır. Rasimin yaratdığı obraz qorxanda mexaniki olaraq həyəcanını ana dilində ifadə edir – filmdə Azərbaycan dilində sözlər eşidilir.

Yuxarıda qeyd etdiyimiz fikrin davamı olaraq Sovet İttifaqını xalqlar imperiyası kimi qəbul etsək, filmdəki qafqazlı David də əzilənlərin təmsilçisidir. Hərçənd, həmin imperiyada əzilməyən xalq yoxdur. Hamı bir yerdə təqibdən, təzyiqdən, irticadan qaçır və bu fonda qafqazlı ilə rus, ya qeyri millətin milli kimliyi arxa plana keçir. Onlar bu mübarizədə müvəqqəti də olsa, bir yerdədirlər. Çünki başqa əlacları yoxdur.

Rasim Cəfərov filmə uzun axtarışdan sonra cəlb olunub. Hətta rejissor müsahibəsində bu barədə deyir ki, kastinq zamanı aktyor çox həyəcanlı görünürmüş. Amma onun daha əvvəl çəkildiyi "Ev" filmini (rejissor Asif Rüstəmov) gördən sonra Fençenko əmin olub ki, rola başqa aktyor dəvət etməyəcək. Çəkilişlərdə də aktyor, seçimi doğruldub. Ümumiyyətlə, Rasim Cəfərov istər kinoda, istərsə də çalışdığı Gənc Tamaşaçılar Teatrında daha çox psixoloji ifaları ilə diqqət çəkir. Onu da qeyd edək ki, "İtkin düşmüş"dəki David onun Rusiya kinematoqrafiyasında ilk rolu deyil. Bundan öncə Rasim "Mosfilm"də çəkilən "Üç qız" və NTV kanalının ekranlaşdırdığı "Jurnalist" filmlərində də rollar ifa edib. Rusiyalı kinoşünaslar etiraf edirlər ki, Rasimin oyununda rus aktyorlarında olmayan xüsusi bir özəllik var...

**RƏBİQƏ**



**Dino BUTTSATİ**
**(1906–1972)**

**Dino Buttsati Venetsiyanın Belluno kommunasında, tanınmış hüquqşünas ailəsində anadan olub. Yaradıcılığının ilk dövründə İtaliyanın ən mötəbər qəzetlərindən biri olan "Korrire della Sera"nın müxbiri kimi tanınıb. Yaradıcılığının ilkin dönəmlərində onun yüksək jurnalist peşəkarlığı ölkənin ictimai–siyasi dairələrində danılmaz nailiyyət kimi qəbul edilsə də, sonralar adının ən görkəmli italyan yazıçıları ilə bir sırada çəkilməsi artıq, XX əsr İtaliya ədəbiyyatının yeni uğuru sayılmalıdır. D.Buttsatinin yaradıcılığını XX əsrin əvvəlləri məşhur Avstriya ədibi F.Kafkanın "səthi əksi" kimi qələmə verən bir sıra tənqidçilərin əsassız iddialarına baxmayaraq, yazıçı öz fərqli orijinallığını sübut etməyi bacarıb. Əslində, D.Buttsati məşhur avstriyalının ona olan təsirini heç vaxt danmamış və bunu dəfələrlə qeyd etməklə yanaşı, onun barəsində özünün sadə olduğu qədər də orijinal etirafını bildirmişdir – "Yazmağa başladığım ilk gündən Kafka mənim xaçım olub".**

**"Tatar səhrası" adlı dünyaşöhrətli romanın, məşhur hekayələrin müəllifi, mahir alpinist və dəniz səyyahı, tanınmış şair və gözəl rəssam olan Buttsati italyan nəsrinin ən orijinal və ziddiyyətli şəxsiyyətlərindən biri kimi qiymətləndirilir. Onun roman və hekayələri, həqiqətən də, son dərəcə özünəməxsus və qeyri-adidir. Realist təsvirlərlə yanaşı, insan psixikasının ən dərin qatlarından gələn, həyatla ölüm arasındakı şüuraltı, mistik dünyalarla bağlı bu əsərlər zaman anlayışına sığışmayan absurd vəziyyətləri və təzahürləri əks etdirir. Nəhayət, Buttsatinin özü haqqında söylədiyi sadə həqiqətlər onun şəxsiyyəti ətrafında dolaşan ifrat orijinallıq və qeyri-adilik müəmmaları ilə müqayisədə son dərəcə şəffaf təəssürat oyadır: "Yazıçının ən yüksək sənətkarlığı, bəhs etdikləri barədə mümkün qədər sadə tərzdə söhbət açmaq bacarığındadır... Məsələ ondadır ki, mən təbiətən anadangəlmə bədbinəm. Ancaq elə düşünmək lazım deyil ki, məndəki bu bədbinlik kədərli həyat təcrübələri nəticəsində yaranıb. Qeyd etməliyəm ki, ümumilikdə, – həm ailəmdə, həm yaradıcılığımda, həm işimdə, həm də sağlamlığımda son dərəcə xoşbəxt bir insanam. Şikayət edə bilmərəm..."**

**XX əsr italyan nəsrinin ən orijinal nümayəndələrindən biri olan D.Buttsatinin ədəbi irsi bu gün də öz yüksək qiymətini təsdiqləməyə davam edir. Yazıçının 1958–ci ildə nüfuzlu "Streqa" mükafatına layiq görülmüş "60 hekayə" (1958) və digər toplularından götürülmüş "Paxıl musiqiçi", "Dostlar", "İnsanın böyüklüyü", həmçinin "Sənətşünas" hekayələrinin qəhrəmanları, onun əksər hekayələrində olduğu kimi, qapalı mühitdə məskunlaşmış, öz ideyalarının əsiri olan, real həyat qanunlarına uyğunlaşmağı bacarmayan insanlar və ya sadəcə paradoksal şəxsiyyətlərdir...**

# *(Hekayə)* İnsanın böyüklüyü

Keşikçilər zülmətə qərq olmuş həbsxananın qapısını açıb, balaca, saqqallı bir qocanı içəri itələyəndə, artıq axşam düşmüşdü.

Qocanın saqqalı dümağ və elə bil özündən də böyük idi. Ondan bu cansıxıcı, yarıqaranlıq karserə zəif işıq süzülür, buralar içəridəki dustaqlarda müəyyən təəssürat oyadırdı.

Ancaq qaranlıq olduğundan, qoca dərhal seçə bilmədi ki, bu mağaraya bənzər həbsxana çalasında ondan başqa da adamlar var, ona görə də soruşdu:

– Burada kimsə var ?

Cavab əvəzinə gülüş və acıqlı donqultular eşidildi. Sonra – qəbul olunmuş qayda-qanuna görə, hamı bir-bir özünü təqdim etməyə başladı:

– Rikkardon Marçello, qarət, ağır formada – deyə kimsə xırıltılı səslə dilləndi.

– Bettseda Karmelo, dələduz – residivist, – deyə bir başqası sanki quyudan gələn boğuq səslə özünü təqdim etdi.

Sonra: – Marfi Luçano – zorlama.

– Lavataro Maks – günahsızam.

Qaranlıqda qulaqbatırıcı qəhqəhə səsləri eşidildi. Zarafat dələduzların xoşuna gəlmişdi, insan qanına susamış islaholunmaz quldur Lavataronu hamı gözəl tanıyırdı.

Sonra yenə: – Espozito Enea – qətl. – Danışanın səsində açıq-aydın qürur hissi duyulurdu.

– Muttironi Vinçentso – ata qatili. Bunun etirafı isə lap qalibiyyət nidası kimi səslənirdi... Yaxşı, bəs sən, qoca birə, sən kimsən?

– Mən... – deyə təzə gələn cavab verdi, – düzünə qalsa, heç özüm də bilmirəm. Məni saxlayıb səndəd tələb etdilər, məndə isə heç vaxt, heç bir sənəd olmayıb.

– Yox, bir... denən tüfeyli, avara! – deyə kimsə nifrətlə söyləndi. Bəs, adın nədi?

– Adım... Adım Morrodur, hm, hm... ləqəbim də ... Böyük!

– Deməli, Böyük Morro. Neynək, pis fikirləşməmisən! – deyə bir başqası qaranlıqdan istehza ilə söz atdı. – Ancaq adın sənin üçün nəsə bir az çox böyükdür. Sənin kimisinin onuna bəs edər.

– Tamamilə dogrudur, – deyə qoca mülayimcəsinə hay verdi. Ancaq bu, mənim günahım deyil. Bu ləqəbi mənə ələ salmaq məqsədi ilə veriblər, indi isə artıq gecdir. Özü də, o, mənə yalnız başağrısı gətirir. Bax, məsələn... yoox, bu, çox uzun əhvalatdır...

– Bura bax, döşə gəlsin görək, – deyə məhbuslardan biri qocanın üstünə kobudcasına çəmkirdi, – burada vaxtımız kefimiz istəyən qədərdir.

O birilər də onu dəstəklədilər. Cansıxıcı həbsxana günlərində hər bir əyləncə bir bayram idi.

– Necə-necə? – deyə həmin o qudurmuş gözlərini bərəldərək bağırdı.

– Böyük Morro adıma and olsun! – deyə mən təkrar etdim.

Bu pəzəvəng isə birdən necə qəhqəhə çəkməyə başlasa yaxşıdır:

– Böyük Morro? Ay camaat, tez bura gəlin, siz bir buna, bu həşərata baxın, sən demə, bunun adı Böyük Morro imiş! Sonra o, üzünü mənə tutub soruşur: – Sən heç bilirsən, Böyük Morro kimdir?

– Morro mən özüməm, başqa birisini də tanıyıb eləmirəm.

– Böyük Morro, – deyə bu yaramaz məni qandırmağa başlayır, – başqa birisi yox, bizim möhtərəm ağamızdır. Sən, murdar dilənçi isə cürət edib onun adına sahib çıxırsan. Ancaq bil ki, bu dəfə ilişmisən. Budur, ağamız özü də gəlir.

– Nə deyirəm ki... – deyə qoca sözə başladı. – Bir gün mən adını çəkmək istəmədiyim bir şəhərdə gəzib-dolaşarkən, möhtəşəm bir saray, onun da qarşısında müxtəlif tanrı təamları ilə ora-bura vurnuxan nökərləri gördüm. Yəqin burada hansısa bayrama hazırlıq gedir, – deyə düşündüm və sədəqə dilənmək məqsədilə bir qədər yaxınlaşdım. Ancaq heç ağzımı açmağa macal tapmamışdım ki, boyu, yalan olmasın, ikimetrlik natarazın biri yapış yaxamdan və başla bağırmağa:

– Budur, budur oğru! Dünən ağamızın çulunu oğurlayan bu idi! Hələ cürətinə bir bax, yenidən qayıdıb gəlib! Neynək, indi biz sənin aşının suyunu verərik!

– Mənim? – deyə təəccüblə soruşuram. Mən ki dünən buralardan ən azı otuz mil uzaqda olmuşam. Necə olur, axı?

– Mən səni bax, bu gözlərimlə görmüşəm! Çulu dalına atıb aradan çıxanda görmüşəm, – deyə o, bağıraraq məni sarayın həyətinə tərəf sürüklədi. Mən diz çöküb, yalvarmağa başladım:

– Dünən mən buralardan ən azı otuz mil uzaqda olmuşam. Sizin bu şəhərdə də birinci dəfəyəm. Böyük Morro adıma and olsun!

Həqiqətən də, səs-küyü eşidən saray sahibi özü də həyətə çıxdı. Bu, çox varlı tacir, bütün şəhərdə, bəlkə də bütün yer üzündə ən zəngin adam idi. O, mənə yaxınlaşıb, sorğu-suala tutdu, baxdı və gülməkdən uğunub-getdi. Təkcə mənim kimi bir dilənçinin onun adını daşıya bilməsi fikri onu əməlli-başlı əyləndirmişdi. Sonra o, nökərinə əmr etdi ki, məni buraxsınlar. Evinə dəvət etdi, var-dövlətlə dolu zallarını göstərir, həttə bax, belə-belə qızıl topaları və qiymətli daş–qaşlar saxladığı, zirehli divarları olan bir otağına da apardı, məni yaxşıca yedirtməyi əmr etdi və dedi:

–Ey, adı adımdan olan dilənçi qoca! Bu əhvalat xüsusən bir də ona görə çox qəribədir ki, Hindistana səfərim zamanı mənimlə də eynən belə bir hadisə baş vermişdi. Mən mallarımı satmaq məqsədi ilə oradakı bazara yollanmışdım. Adamlar apardığım bahalı şeyləri gördükdə, məni dövrəyə alıb, sorğu–suala tutmağa başladılar ki, kiməm və haradan gəlirəm.

– Adım Böyük Morrodur, – deyə mən cavab verdim. Onlar isə üzgözlərini turşudub söylədilər:

– Böyük Morro? Səndə nə böyüklük ola bilər, miskin alverçi? İnsanın böyüklüyü onun idrakındadır! Yer üzündə tək bircə Böyük Morro var, o da bizim şəhərdə yaşayır. O, bizim məmləkətin fəxridir və sən, firıldaqçı, öz lovğalığına görə indi onun qarşısında cavab verməli olacaqsan!

Elə oradaca məni qamarlayırlar, əlimi-qolumu bağlayıb, varlığından xəbərim də olmayan həmin o Morronun yanına aparırlar. Sən demə, bu adam hamının az qala tanrı kimi sitayiş etdiyi adlı-sanlı alim, filosof və riyaziyyatçı, astronom və münəccim imiş. Xoşbəxtlikdən o, dərhal başa düşdü ki, anlaşılmazlıq baş verib, güldü, əl-qolumu açmağı əmr etdi, məni öz iş otağına, rəsədxanasına, öz əlləri ilə hazırladığı qəribə cihazlarına baxmağa dəvət etdi. Nəhayət, dedi:

– Ey möhtərəm yadelli tacir! Bu əhvalat xüsusən bir də ona görə çox qəribədir ki, Levant adalarına səyahətim zamanı mənimlə də eynən belə bir hadisə baş vermişdi. Mən tədqiq etmək istədiyim bir yanar dağın zirvəsinə pay-piyada qalxarkən, o yerlər üçün qeyri-adi olan üst-başımdan şübhələnən bir dəstə döyüşçü kimliyimi yoxlamaq məqsədi ilə məni saxladı. Adımı söyləməyə macal tapmamışdım ki, qollarımı qandallayıb məni şəhərə doğru sürükləməyə başladılar.

– Böyük Morro? – deyə onlar hiddətlənirdi. Səndə nə böyüklük ola bilər, miskin müəllimciyəz? İnsanın böyüklüyü onun qəhrəmanlıq əməllərindədir! Yer üzündə tək bircə Böyük Morro var. O da bu adanın ağası, qılıncı günəşin altında bərq vuranda bütün döyüşçülərin ən cəsurudur!

İndi o, sənin başını bədənindən ayırmağı əmr edəndə ağlın yerinə gələr!

Onlar məni, həqiqətən də, qorxunc görkəmi olan hökmdarlarının hüzuruna gətirdilər. Xoşbəxtlikdən, mən ona hər şeyi anlada bildim və bu zəhmli döyüşçü belə qəribə təsadüfə gülərək qandallarımı açmağı əmr etdi, mənə bahalı libaslar bağışladı, onun yaxın və uzaq adalarda yaşayan bütün xalqlar üzərində çaldığı qələbələrinin şanlı şəhadətlərini seyr etməyim üçün məni öz sarayına dəvət etdi. Axırda isə dedi:

– Ey, mənimlə bərabər eyni adı daşıyan möhtərəm alim! Bu əhvalat, xüsusən bir də ona görə çox qəribədir ki, Avropa deyilən o uzaq diyarda döyüşərkən mənimlə də eynən belə bir hadisə baş vermişdi. Mən öz döyüşçülərimin önündə bir meşədən keçib-gedərkən kobud dağlılar qabağımı kəsib soruşdular:

– Sən kimsən ki, silahının cingiltisi ilə bizim meşələrin sükutunu pozursan?

– Mən Böyük Morroyam, – deyə söyləyir və öz-özümə düşünürəm ki, təkcə adımı çəkməklə onların canına vəlvələ salacağam. Onlar isə mərhəmətlə gülümsəyərək deyirlər:

– Böyük Morro? Sən, yəqin, zarafat edirsən. Səndə nə böyüklük ola bilər, avara döyüşçü? İnsanın böyüklüyü ehtiraslarını ram edə bilməsində və ruhunun ucalığındadır! Yer üzündə yalnız bircə Böyük Morro var və indi biz səni onun yanına aparacağıq ki, sən insanın əsl böyüklüyünün nə olduğunu öz gözlərinlə görə biləsən. Və onlar məni, həqiqətən də, öz kasıb daxmasında cır-cındır içində həyat sürən, onların dediyinə görə, bütün ömrünü təbiəti dərk etməkdə və Tanrıya ibadətdə keçirən, qar kimi bəyaz saqqallı bir qocanın yaşadığı tənha dərəyə gətirdilər və mən tam səmimiyyətlə boynuma almalıyam ki, həmin o vaxta qədər hələ heç vaxt bu dərəcədə təmkinli, həyatından razı və yəqin ki, xoşbəxt bir insan görməmişdim. Ancaq həyat yolumu dəyişmək mənimçün artıq çox gec idi.

Adanın qüdrətli hökmdarı müdrik alimə, alim varlı tacirə, tacir isə onun qapısına sədəqə üçün gəlmiş kasıb qocaya bunları söylədi. Onların hamısının adı Morro idi, hamısı da bu və ya digər səbəbdən "Böyük" ləqəbini almışdılar.

Qoca hekayətini danışıb qurtaranda, qaranlıq həbsxana otağındakı dələduzlardan biri soruşdu:

– Deməli, belə... – əgər mənim bu kəlləmin içindəkilər zir-zibil deyilsə, onda belə çıxır ki, daxmadakı həmin o lənətə gəlmiş qoca, – yəni o, hamıdan böyük, – elə sən özünsən?

– Eh, əziz balalar,– deyə qoca nə "hə", nə də "yox" cavabı vermədən, donquldandı:

– Bu həyat ki, var, – çox məzəli şeydir!

Bu yerdə qocanı dinləyən dələduzların hamısı bir anlığa susdu, çünki bəzi şeylər, həttə ən alçaq yaramazları belə, düşünməyə məcbur edir.



**Tərcümə edən:**
**İlqar ƏLFİ**

**Bu səhifəni uşaqlar, yeniyetmələr üçün hazırlamışıq. Amma bu, heç də o anlama gəlməsin ki, səhifəmizi oxuyarkən böyüklər zövq almayacaq. Mütləq alacaqlar, çünki elm öyrənmək, savad almaq insanın əbədi, həmişəcavan arzularındandır. Bəşəriyyət zaman-zaman adamları iki yerə bölüb: savadlılara və bisavadlara. Bütün sivilizasiyalar ona görə sivilizasiya olub ki, içindəki savadlı kəsim, düşünən insanlar artıb, fərqli bir mədəniyyət yarada bilib.**

**Müasir dövrdə elmə, biliyə can atmaq daha vacibdir, çünki dünənə kimi qarşımızda bir sirr olaraq qalan çox mətləblər artıq çözülə-çözülə gedir, bildiklərimiz artır, bilmədiklərimiz azalır. Amma nə qədər öyrənsək də, bilmədiklərimiz bildiyimizdən qat-qat çox olaraq qalacaq.**

**Səhifəmizi müntəzəm izləsəniz, minlərlə mürəkkəb sualın sadə cavabını tapacaqsınız. Bu mətləblərin əksəriyyəti ilə orta məktəbdə rastlaşmışıq, amma təəssüf ki, dərsliklərimizin, nədənsə həmişə qəliz olan elmi dili ucbatından çox şey əxz edə bilməmişik.**

**Biz heç də o iddiada deyilik ki, "Hər suala bir cavab" rubrikamızı izləyə-izləyə savadlanacaq, alim olacaqsınız. Məqsəd uşaqlarımızın dünyagörüşünü genişləndirmək, onları həmişə diqqət mərkəzində olan maraqlı həmsöhbətə çevirməkdir.**

**İlqar ƏLFİ**



# Hər suala

## Herakl kimdir?

Məlumdur ki, Herakl qeyri-adi gücə malik pəhləvan olub. Lakin qədim yunanlar üçün bu adın mənası qat-qat böyük idi. Onlar Herakla az qala tanrı kimi sitayiş edirdilər. Əfsanəyə əsasən, Herakl tanrılar tanrısı Zevsin və adi insan olan Alkmenanın oğlu idi. Zevsin əsas arvadı ilahə Hera ona dərin nifrət bəsləyirdi. Herakl hələ yeriyə bilməyəndə Hera onun beşiyinin yanına iki ilan göndərir ki, körpəni sancıb öldürsünlər. Lakin balaca Herakl ilanların hər ikisini asanlıqla boğub öldürür. Böyüyəndən sonra Herakl Meqare ilə evlənir, amma Hera oğlanın üzərinə divanəlik yollayır və Herakl dəli bir qəzəb içində arvadını da, uşaqlarını da qətlə yetirir. Öz günahını yumaq üçün Herakl Delfi orakullarının göstərişi ilə öz xidmətini çar Evrisfeyə təklif edir. Evrisfey isə ona on iki tapşırıq verərək Heraklın on iki qəhrəmanlığına şərait yaradır.

Herakl haqqında əfsanələrin əksəriyyəti həmin qəhrəmanlıqların təsvirinə həsr olunub. Onun ilk qəhrəmanlığı yırtıcı bir şiri boğması olur. Sonra o Hidra ilə – doqquz başından səkkizi ölən, biri isə ölməz olan dəhşətli məxluqla döyüşə gedir. Herakl hər dəfə Hidranın bir başını kəsəndə, onun yerindən ikisi bitirdi.

Üçüncü igidlik çox güclü və azğın vəhşi qabanın tutulması ilə əlaqədar idi. Evrisfeyin dördüncü tapşırığı qızıl buynuzlu maralı tutmaq olur. Herakl bu tapşırığın da öhdəsindən gəlir.

Sonra qəhrəman çar Avginin 30 il ərzində peyindən təmizlənməyən tövləsini təmizləyəsi olur. Herakl çayın məcrasını dəyişir və güclü axın tövləni bir gündə gül kimi eləyir.

Heraklın altıncı qəhrəmanlığı insanları oğurlayıb yeyən dəhşətli quşların məhv edilməsi; yeddinci qəhrəmanlığı isə Kritdəki əfsanəvi öküzün tutulması olur.

Səkkizinci tapşırıq çar Diomedin insan ətiylə yemlədiyi vəhşi madyanlarını əhliləşdirmək idi.

Doqquzuncu igidliyi Evrisfeyin qızı üçün amazonkaların hökmdarı İppolitanın kəmərini gətirməkdən ibarət olur.

Onuncu igidlik okeanın qərbində, çox uzaqlarda yerləşən bir adadan Gerionun inəklərini gətirmək idi. Herakl yolüstü, Avropanın qərb sahilinə yetişərək özünə yol açmaq üçün qayanı yarır və nəticədə Cəbəllütariq boğazı əmələ gəlir. Bunun dalınca Herakl Evrisfeyin istəyi ilə Gesperidin qızıl almalarını da gətirir.

Qəhrəmanın on ikinci igidliyi isə Ölülər səltənəti Aidin darvazası ağzında keşik çəkən Kerbera adlı iti gətirib çara təhvil verməkolur.

## Axilles kimdir?

Siz, bəlkə də kiminsə, nəyinsə zəif yerini göstərən bir şeydən söhbət gedərkən işlənən "Axilles dabanı" ifadəsini eşitmisiniz. Bu Axilles, yaxud bəzilərinin dediyi kimi, Axill kimdir?

Axilles Qədim Yunanıstanın qəhrəmanlarından biri olub. O, dünyaya gələndə, anası, dəniz ilahəsi Fetida körpəsini silahlar qarşısında güclü etmək üçün yeraltı Stiks çayında çimizdirir. Nəticədə Axillesin bütün bədəni zirehdən də möhkəm olur. Zəif qalan bircə onun dabanı olur – o daban ki, körpəni suya salanda anası ondan tutmuşdu!

Sonralar onun taleyini elə həmin zəif nöqtə müəyyənləşdirir.

Axilles böyüyür, gözəl və son dərəcə güclü, zirək bir cavana çevrilir. Onun surətinə bərabər surət adamlar arasında yox idi. İllər keçir və Axilles Troya ilə müharibədə bütün yunanların ümid yerinə çevrilir.

Lakin yunanların başçısı Aqamemnon onun əsir götürdüyü Xriseida adlı qızı Axillesin əlindən alandan sonra, o, qəzəblənərək döyüşməkdən imtina edir. Qəhrəmansız qalmış yunanlar troyalıların qəfil hücumu qarşısında davam gətirə bilmirlər. Onda Axilles yaxın dostu Patrokla icazə verir ki, onun zirehini geyərək döyüşə girsin. Lakin Patrokl Troya qəhrəmanı Hektora məğlub olur və Hektor Axillesin zirehli geyimini də götürüb özüylə aparır.

Baş verənlərdən xəbər tutan Axillesin Aqamemnona qarşı kini soyuyur və o, tanrı Hefestin öz əlindən yeni zireh və qalxan alaraq döyüşə girir, Hektoru öldürüb dostunun qanını alır. Qəzəbini soyutsun deyə, Hektorun meyitini ata bağlayıb Patroklun məzarı başına dolandırır.

Daha sonra, növbəti döyüşdə Hektorun qardaşı Paris, Axillesə tuşladığı zəhərli oxu yaydan buraxır və bu ox Axillesin yeganə zəif yerinə - dabanına dəyir və qəhrəman aldığı yaradan həlak olur.

## Kral Artur həqiqətən olubmu?

Çoxunuz, yəqin, kral Artur və onun Dəyirmi Masa cəngavərləri haqda tarixçəni oxumusunuz. Bu hekayətlər uydurma sayılır. Lakin əfsanələr tez-tez real faktlara əsaslanır. Görəsən, bu halda necə, danışılanların real bir əsası varmı? Kral Arturun nə vaxtsa dəqiq olub-olmadığını bu gün kimsə söyləyə bilməz.

Tarixçilərin çoxu bu fikirdədir ki, kral Artur haqda əfsanələr Britaniyada V-VI əsrlərdə yaşamış qəbilələrdən birinin başçısı ilə bağlıdır. Romalıların İngiltərəni az qala 400 il idarə etməsini nəzərə alaraq, güman edə bilərik ki, kral Arturun damarlarında brittlərlə romalıların qarışıq qanı da axa bilərdi. O, bəlkə də saksoniyalı qəsbkarlara qarşı çıxan böyük orduya sərkərdəlik etmişdi. Kral Artura həm Uelsdə, həm də İngiltərədə pərəstiş edirdilər. Onun barəsində rəvayətlər nəsildən-nəslə keçirdi və hər yeni nəsil bu hekayətlərə təzə, daha canlı cizgilər əlavə edir, onları özünün bildiyi kimi bəzəyirdi.

Beləliklə, axırda kral Artur nə vaxtsa Yer üzündə yaşamış görkəmli qəhrəmanlardan birinə çevrildi. O, dəhşətli, nəhəng məxluqları öldürən, tilsimi, sehrbazlığı bacaran mərhəmətli, müdrik kral idi. Kimsə kral Arturun sarayının yerini bilmir. İngiltərədə bu məkana altı yer iddialıdır. Onların hamısında məşhur kralın tikdirə biləcəyi abidələr var. Kral Artur barədə öz əsərlərində ilk dəfə söhbət açan VIII əsrdə yaşamış uelsli tarixçi olub. Sonrakı 400 il ərzində kral barəsində bircə sətir belə yazılmayıb. Lakin XII əsrdə kral Arturdan bəhs edən rəvayətlər sürətlə yayılmağa başlayır. Onların ən qədimləri latın dilindədir.

Lakin bundan az sonra şairlər kralın həyatını ingilis və fransız dillərində də vəsf etməyə başladılar. XV əsrdə ser Tomas Melori kral Artur haqda olan bütün şifahi nümunələri bir yerə toplayıb "Arturun ölümü" kitabını nəşr etdirdi.

## Vikinqlər kimdir?

Təxminən 1200 il əvvəl Skandinaviyada Norveç, İsveç və Danimarkanın sahil nahiyələrindən çıxan yeni bir qəbilə yarandı. "Vikinq" adı, çox mümkün ki, "viks" sözündən əmələ gəlir ki, mənası "fiordlar" deməkdir. Fiordlar Skandinaviyada çox geniş yayılmış, sahil xəttini kəsən dar körfəzlərə deyilir. Zaman keçdikcə, vikinqlər dahi dənizçilərə və macəra həvəskarlarına çevrildilər. Onlar möhkəm bədənli, ucaboy, adətən, sarısaç və mavigözlü döyüşçülər idi. Avropada məskunlaşan başqa xalqlar okean sularına çıxmağa ürək eləməyəndə vikinqlər öz gəmilərində dəniz ticarəti ilə məşğul olaraq, yeni diyarlar kəşf edirdi. Onlar, ümumiyyətlə, ev rahatlığını döyüşlərə, macəralara qurban verərək, maraqlı həyat sürməyə meyil göstərirdilər.

Bizim eranın 793-cü ilində vikinqlər ilk dəfə İngiltərə sahillərinə çıxdılar. Həmin andan XI əsrədək onlar Qərbi və Şərqi Avropaya yürüşlər edirdilər. Vikinqlər İngiltərənin, İrlandiyanın, Fransanın, İspaniyanın sahil rayonlarında yerləşən xalqları qarət edirdilər. Onlar hətta Afrikanın şimalında yerləşən Əlcəzairə belə gedib çıxmışdılar. Vikinqlər Qrenlandiyadan qərbdə yerləşən adaları tapdılar, Şimali Amerika qitəsinin bir hissəsini kəşf edərək ora Vinlandiya adı verdilər. Orada qala qurub üç il qaldılar.

Vikinqlərin bənzərsiz mədəniyyətləri vardı. Onlar gözəl gəmilər inşa edir, bəzək əşyaları, silahlar düzəldirdilər.

Vikinqlərin diyarında böyük dəmir yataqları vardı, onların sənətkarları metalla davranmaqda çox usta idilər. Bu xalq həmişə bütpərəst olub. Onların əsas tanrıları Odin və Tor idi. Vikinqlər inanırdı ki, tanrılar Valqalla adlanan yerdə birlikdə yaşayırlar və döyüşdə həlak olan döyüşçülər də ora düşür. Bu xalqın özünün saqa formasında ədəbiyyatı da vardı. Saqalarda kralların, sadə adamların həyatından söhbət açılırdı. Vikinqlər ədalət və düzgünlüyə əsaslanan qanunlar toplusu da hazırlamışdılar. Alimlər bu fikirdədir ki, onların qanunlarının izini bir çox ölkələrdə bu gün də qüvvədə olan qanunlarda görmək mümkündür.

## Lord Nelson kimdir?

Lord Horatsio Nelson Britaniya hərbi donanmasının bütün tarixi ərzində ən məşhur komandan olub. O, 1758-ci ildə anadan olub. Və elə zəif, xəstəhal körpə imiş ki, elə biliblər, bir-iki il də yaşamayacaq. Uşaq kasıb bir ruhani ailəsində anadan olmuşdu və ona görə də Horatsio 12 yaşında ata evini tərk edərək hərbi gəmidə işləməyə başlayır.

# bir cavab

21 yaşında o, freqat kapitanı olur. Və öz gəmisində o zamanlar üçün görünməmiş bir qayda-qanun yaradır. O deyirdi ki, matroslarla qəddar davranış onları qorxaq, gözüqıpıq edir. Nelsonun şöhrətin zirvəsinə yüksəlişi 1793-cü ildə başlayır. O vaxt Fransa ilə müharibədə yaxından iştirak edən "Aqamemnon" gəmisinə rəhbərlik ona tapşırılır.

Sonrakı üç il ərzində o, özünü soyuqqanlı, cəsarətli, müdrik bir kapitan kimi tanıdır. Həmin müharibədə o, Kalvi yaxınlığındakı döyüşlərdə sağ gözünü, az sonra, Kanar adaları yaxınlığındakı döyüşlərdə qolunu itirir. Onun qəhrəmanlığı tərəflər arasında bağlanan sülh müqaviləsindən sonra səxavətli təqaüdlə, zadəgan titulu və kontr-admiral rütbəsi ilə qiymətləndirilir. Lakin sülh uzun sürmür və Napoleon Fransada hakimiyyətə gələndən sonra müharibə yenidən alovlanır. Nelson İngiltərənin Misir və Hindistanla əlaqəsini kəsməyə hazırlaşan Napoleon donanmasını tapıb məhv etmək əmri alır. Baş verən dəniz döyüşündə Nelson çox parlaq bir qələbə qazanır və bütün İngiltərədə pərəstiş obyektinə çevrilir.

Onun həyatı qəflətən, 1805-ci ilin 21 oktyabrında bitir. Lord Nelsonu qərargahından çağırırlar ki, Aralıq dənizi donanmasının vahid komandanlığını qəbul etsin və İngiltərəni Napoleonun real təcavüzündən qorusun. Fransız və ispan donanması ilə Trafalqar burnu yaxınlığında baş verən ağır dəniz döyüşündə fransız gəmisindən atılan muşket atəşi onu ölümcül yaralayır. Admiral bundan bir neçə saat keçmiş artıq ingilis donanması qələbə çalandan sonra canını tapşırır.

## Qladiatorlar kimdir?

Yer üzündə nə vaxtsa mövcud olmuş tamaşalardan ən qəddarı qədim Romada baş verən qladiator döyüşləri idi. Bu ənənə qədim etruskların böyük dəfn mərasimləri zamanı qulları bir-biriylə döyüşdürmək adətindən gəlir. Romalılar bu ideyanı məmnuniyyətlə götürdülər və ilk qladiator döyüşləri eramızdan əvvəl 264-cü ildə baş tutdu. İlk dövrdə romalılar da etrusklar kimi, bu döyüşləri yalnız dəfn mərasimlərində təşkil edirdilər. Amma tədricən romalılar bu döyüşləri sevdi, onu bir əyləncə kimi böyük arenalara keçirdilər. İlk qladiatorlar bizim indi başa düşdüyümüz bacarıqlı döyüşçülər deyil, adi qullar, yaxud ölümə məhkum edilmiş cinayətkarlar idi. Sonralar qladiatorların təlimi üçün xüsusi məktəblər təşkil olundu və pul qazanmaq, şöhrət tapmaq istəyən insanlar – bütün təbəqələrin nümayəndələri də qladiatorlara qoşulmağa başladı.

Məxsusi olaraq qladiator döyüşləri üçün nəhəng amfiteatrlar tikildi. Tamaşa, adətən gümüş, qızıl döyüş əlbisələri geymiş qladiatorların marşından başlanırdı. Marşdan sonra tamaşaçıların qızışması üçün taxta silahlarla əyləncəli döyüşlər keçirilirdi. Sonda musiqi daha ucadan çalınır və oyuncaq silahlar əsl silahlarla əvəz olunurdu. Qladiatorlar cüt-cüt bölünüb, qanlı döyüşlərə başlayırdılar.

Qladiatorlar cürbəcür silahlardan istifadə edirdilər. Daha çox təkbətək döyüşlər olurdu. Əgər rəqiblərdən hansısa yaralanırdısa, onun taleyi tamaşaçılardan asılı olurdu. Onlar yaralının sağ qalmasını istəyirdilərsə, əl yaylıqlarını havada yelləyir, əllərinin baş barmağını yuxarı tuturdular. Əgər baş barmaqlar aşağı tuşlanırdısa, döyüşçü ölməli idi.

Zaman keçdikcə, bu döyüşlər romalıların zəhləsini tökməyə başladı və onlar yeni tamaşalar fikirləşdilər. Artıq qladiatorlar şirlərlə, pələnglərlə və başqa vəhşi heyvanlarla döyüşürdülər. Bu dəhşətli tamaşalara son qoymaq üçün çox cəhdlər edildi, lakin yalnız eramızın 500-cü ilində imperator Teodorik buna nail oldu.

## Amazonkalar kimdir?

Bəşəriyyət nəhəng adamlar və fövqəlinsanlardan ibarət xalqlar haqda miflər, əfsanələr yaradıb. Belə əfsanələrin ən məşhuru döyüşçü-qadınlardan ibarət qəribə bir qəbilə haqdadır. Bu qəbilədəki gözəl qadınlar amazonkalar kimi tanınır. Amazonkalar cəsur, döyüşməyi sevən və bunu çox yaxşı bacaran qadınlar hesab olunurdu.

Əfsanələrə görə, onlar Qafqaz dağlarından enərək, Kiçik Asiyada yerləşiblər. Amazonkaların hökmdarı qadın idi, bütün dövlət vəzifələrini də qadınlar tuturdu. Onlar özləri döyüşür, yaşadığı şəhərləri özləri tikirdi. Amazonkalar aralarına təsadüfən düşən kişiləri ya qovur, ya da qətlə yetirirdilər. Lakin bu cəsur xalq Afinanı tutmağa çalışanda məğlub oldu, onların ordusu dağıldı.

Arvadları sakit ev həyatı yaşayan yunanlar bu vəhşi, cəsur qadınlar haqda əfsanələrdən, nağıllardan vəcdə gəlirdilər və onlar yavaş-yavaş qədim yunan incəsənətinin parlaq personajlarına çevrilirdilər. Amazonkaları adətən at belində, əlində nizə, ox, qalxan tumuş qiyafədə təsvir edirdilər.

1541-ci ildə tədqiqatçı Fransisko de Oralelana ağ adamlar arasında ilk olaraq Braziliya və Peru ərazisindən axan nəhəng çayın mənbəyindən məcrasına qədər uzun səyahət etmişdi. Yolda onun rastına uzunsaç hindu döyüşçüləri çıxmışdı və səyyah onların tüksüz üzünə baxaraq qadın olduqlarını düşünmüşdü. Elə buna görə də üzdüyü nəhəng çayın adını qədim yunan əfsanələrinin məşhur qəhrəmanlarının şərəfinə Amazonka qoymuşdu.

## Su pəriləri kimdir?

Su pəriləri heç vaxt olmayıb, amma az qala bütün dünya xalqlarının əfsanələrində onlardan söhbət gedir. Bu əfsanələrdə su pəriləri dənizdə yaşayan, bədəninin aşağı hissəsi balıq olan gözəl qızlar kimi təsvir olunur. Qədim yunan mifologiyasında su pərilərinə sirenalar deyirdilər. Sirenalar öz məlahətli səsləriylə dənizçiləri elə valeh edirmişlər ki, zavallılar ağıllarını alan səsin dalınca özlərini gəmidən atırmışlar. German əfsanələrində onlara Reyn qızları deyirdilər. Bu qızlar guya Reyn çayının dibindəki gözəl qəsrdə yaşayırmışlar. Hətta Şimali Amerika hindularının da su pəriləri haqda əfsanələri var!

Bu əfsanələrin əksəriyyətində su pəriləri qurşağa kimi balıq, qurşaqdan yuxarı insandır.

Əfsanələrdə su pərilərindən başqa suda yaşayan, kişi cinsindən olan qəribə məxluqlar haqda da söhbətlər gedir. Bu məxluqlar guya insan övladı olan qızlara vurulub onları tələyə salır, çəkib suyun altına aparırdılar. Bu qəribə əfsanələrin nəyə əsaslandığını demək çətindir. Bəlkə də biz bunun yaranma səbəblərini min illər qabaq gəmilərə minib dünya okeanını dolaşan ilk səyyahlarda axtarmalıyıq. Əvvəllər gəmi görməyən ibtidai insanlar bu qəribə qurğu ilə ilk dəfə rastlaşanda elə bilirmişlər ki, gəmilər okeanın dibindən qalxıb, onların sakinləri isə suda-quruda yaşaya bilən yarıadam-yarıbalıqlardır. Amma bəlkə də bu əfsanələrin yaranmasına adamların zahirən insana bənzəyən qəribə dəniz heyvanlarıyla rastlaşması səbəb olub. Ola bilər ki, bəzən suitilər, morjlar, yaxud dəniz inəklərini sirli, yarıinsan-yarıheyvan olan qəribə məxluqlar hesab ediblər.

Müxtəlif ölkələrdə su pəriləri barədə müxtəlif əfsanələr yaranıb. Onların bəzilərində bu qəribə məxluqlar gələcəyi söyləmək, adamlara qeyri-adi güc vermək iqtidarındadırlar. Su pərisi haqda belə bir nağıl da var. Guya onlardan biri adi bir gəncə vurulur, dənizi tərk edir ki, sevgilisiylə bir yerdə yaşasın, amma ondan vəfa görməyərək özünün əsl evinə dönür. Başqa bir əfsanədə isə su pərisi insanı elə valeh edir ki, o, dənizin dibində yaşamağa gedir.

Belə əfsanələr, nağıllar bizim Xəzərətrafı regionda yaşayan xalq arasında da var. Bəzən bu qədim inanclar o qədər güclü olur ki, insanlar bizim günlərdə də vaxtaşırı su pərisi gördüklərini iddia edirlər. Onların fikrincə, bu qəribə məxluqlar Xəzərdəki adalarda gizlin şəkildə yaşayır, nadir hallarda üzə çıxırlar...



Aydın Yol
N 06(65) 11.03.2016

# Harri Potter haqqında yeni kitab




**Martın 9-da britaniyalı yazıçı Coan Roulinqin Harri Potter haqqında yeni əsəri xüsusi saytda oxuculara təqdim ediləcək.**

Jurnalistlərin verdiyi məlumata görə, "Pottermore" adlandırılan yeni əsər tam şəkildə martın 11-də işıq üzü görəcək. Beləliklə, oxucular yazıçının yenicə qələmindən çıxmış əsəriylə tanış olacaq. Eyni zamanda kitab konkret olaraq Harri Potterdən yox, məhz cadugərlikdən bəhs edəcək. "Şimali Amerikada magiya" adlı irihəcmli əsərin əsas personajı əfsanəvi cadugər olacaq.

# Yazıçı Pet Konroy dünyasını dəyişdi



**Məşhur yazıçı, "Qabarmalar hökmdarı" bestsellerinin müəllifi Pet Konroy Cənubi Karolinada ailəsi ilə birlikdə yaşadığı evində cümə günü, 70 yaşında vəfat edib. Hələ fevral ayında o, mədəaltı vəzin xərçəngi xəstəliyindən əziyyət çəkdiyini bildirmişdi.**

Pet Konroy 1945-ci ildə anadan olub. Onun ən məşhur əsərləri sırasında "Böyük Santini" (1976), "Qabarmalar hökmdarı"nın (1986) adlarını çəkmək olar. Yazıçının kitabları indiyə qədər bütün dünyada 20 milyondan artıq tirajla satılıb.

Qeyd edək ki, " Qabarmalar hökmdarı" əsəri 1991-ci ildə ekranlaşdırılıb. Filmdə baş rolları Barbara Streyzend və Nik Nolti ifa edib.

## Elektron poçtun yaradıcısı vəfat etdi



**Amerikalı mühəndis, elektron poçtun yaradıcısı Rey Tomlinson 75 yaşında ürək tutmasından vəfat edib. Məhz bu mühəndisin kəşfi sayəsində hər gün elektron poçt vasitəsilə 200 milyarddan çox mesaj göndərilir.**

Rey Tomlinson 25 il əvvəl yaradılmış ARPANET şəbəkəsinin qurucularından biridir. Bu şəbəkə internetin "ulu babası" sayılır. Tomlinson bütün ömrünü proqramlaşdırmaya həsr etmişdi. O, 1971-ci ildə poçtu yaradıb, ilk elektron mesaj isə 1972-ci ildə göndərilib. Elektron poçtlardakı @ simvolundan da ilk dəfə Tomlinson müəyyən sistemlərin poçt ünvanlarını göstərmək üçün istifadə edib.

## Şvartsenegger "Yırtıcı" və "Konan" remeykinə qayıdıb



❍ **"Terminator-1"-dən sonra dünya şöhrəti və tamaşaçı sevgisi qazanmış məşhur Hollivud ulduzu Arnold Şvartsenegger yerli mətbuata verdiyi müsahibəsində deyib ki, rejissor Şeyn Blekin çəkəcəyi "Yırtıcı" filmində yenidən rol almaq arzusundadır. Qeyd edək ki, Şeyn Blek bu filmə ikinci ekran ömrü vermək niyyətindədir.**

Birinci filmdə Arnold Şvartsenegger ABŞ silahlı qüvvələrinin mayoru Alan Şeffer obrazını canlandırmışdı. Aktyor bu dəfə də filmdə rol almaq istəyi barədə rejissorla müzakirələr aparacağını söyləyib. Onların görüşü "Arnold's Sports Festival" tədbirindən və "Apprentice" şousundan sonra baş tutacaq. Bundan əlavə, Şvartsenegger "Konan" filminin remeykində də çəkilmək istəyini dilə gətirib. Hal-hazırda aktyor "Apprentice" şousunda qalmaqallı Donald Trampı əvəz edir.

## "Möhtəşəm Yüz il" bu dəfə ümidləri doğrultmadı

**Türkiyənin ən böyük büdcəli seriallarından hesab edilən "Möhtəşəm Yüz il: Kösəm"in bitəcəyi vaxt dəqiqləşib.**

Türkiyə mətbuatı xəbər verir ki, dörd il boyunca reytinqlərə liderlik etmiş "Möhtəşəm Yüz il"ın davamı kimi nəzərdə tutulan layihə, ilk gündən gözlənilən nəticəni əldə edə bilməyib.

Aktrisa Beren Saatın vaxtından əvvəl seriala daxil olması reytinqlərə təsir etməyib. Hülya Avşarın obrazı isə tamaşaçılar tərəfindən birmənalı qarşılanmayıb.

Serialın xarici telekanallara birillik satışı nəzərdə tutulduğundan, uğursuzluğa rəğmən çəkilişlər davam etdirilirdi. Ancaq Star TV sonda qəti qərarını verib.

Beləliklə, "Möhtəşəm Yüz il: Kösəm" mayın 12-də 26-cı seriyası ilə ekranlara vida edəcək.

**Hazırladı: NARINGÜL**



## Oxucuların nəzərinə




**Tərcümə Mərkəzinin nəşr etdiyi (Xuan Rulfo – "Pedro Paramo", Matilda Urrutia – "Pablo Nerudayla yaşanan ömür", "Latın Amerikası romanı", "Xilas yolunun yolçuları", "Bəşəri poeziya", Ernest Heminquey – "Qadınsız kişilər", Akutaqava Rünoske – "Tanrıların istehzası", Jasmina Mixayloviç – "Xəzər dənizinin sahillərində", "Serbcə-Azərbaycanca lüğət", "Sözün Aydını", Oljas Süleymenov – "Az-Ya", "Candles (101 verses)" (şeir antologiyası), "Çexovdan Markesə qədər", "Modianonun seçilmiş əsərləri", "Boliviya gündəliyi", "Bizim həyatımız - bir şeh damlası") kitabları şəhərin aşağıdakı kitab mağazalarından əldə edə bilərsiniz.**

- **Akadem. Kitab mağazası**
- **Kitab klubu mağazası**
- **Akademiya Kitab Mərkəzi**
- **Kitabevim.Az mağazası**
- **(28 may metrosu ətrafındakı kitab mağazaları)**